

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 45 (887) ▪ 22 noyabr 2017 www.vergiler.az Qiyməti: 60 qəp.

## Azərbaycanın davamlı inkişafı rayonlara da təsirsiz ötüşməyib

**Prezident İlham Əliyev noyabrın 16-da Abşeron rayonunda olub. Əvvəlcə Xırdalan şəhərinin mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyan dövlətimizin başçısı ulu öndərin adını daşıyan parkda aparılan yenidənqurma işləri ilə tanış olub.**



Abşeron Olimpiya İdman Kompleksinin açılışında iştirak edən dövlətimizin başçısına bildirilib ki, kompleksdə inşaat işləri ən yüksək səviyyədə aparılıb və bu ilin oktyabrında başa çatdırılıb. Buradakı üzgüçülük hovuzu ən müasir standartlara cavab verir. Hovuzun uzunluğu 25 metr, eni isə 12,5 metrdir. İdmanın bu növünə də ölkəmizdə yeniyetmə və gənclərin marağı ilbəil artır. Bu zalda üzgüçülük yarışlarını 150 nəfər izləyə biləcək. Qeyd olunub ki, 975 tamaşaçı yerlik universal idman salonunda idmanın müxtəlif növləri üzrə yarışlar təşkil etmək mümkündür. Boks zalında məşqlərin keçirilməsi və yarışların təşkili üçün hərtərəfli imkan yaradılıb. Burada aerobika məşqləri üçün də xüsusi şərait var. İdmançılara həkim nəzarəti də yüksək səviyyədə təşkil olunub. Kompleksə daxil olan mehmanxanada idmançılar, məşqçilər, qonaqlar mənalı istirahət edə biləcəklər. Kompleksin nəzdindəki şahmat klubu müasirliyi ilə diqqəti çəkir. Son illər ölkəmizdə şahmat üzrə mötəbər beynəlxalq yarışların təşkili, eləcə də Azərbaycan şahmatçılarının ən nüfuzlu turnirlərdə parlaq qələbələri ölkəmizin hər yerində olduğu kimi, Abşeronda da idmanın bu qədim növünə marağı artırıb.

Komplekslə tanışlıqdan sonra Prezident İlham Əliyev Abşeron rayon ictimaiyyətinin nümayəndələri və ölkəmizin tanınmış idmançıları ilə görüşüb. Dövlətimizin başçısı bildirib ki, Abşeron Olimpiya İdman Kompleksi bölgələrdə inşa edilmiş sayca 42-ci Olimpiya İdman Kompleksidir. Bu rəqəm özlüyündə bir göstəricidir: «İndi bizim əksər rayonlarımızda ən müasir idman kompleksləri fəaliyyət göstərir. Əlbəttə, biz növbəti illərdə də yeni komplekslərin tikintisi ilə məşğul olacağıq. Ağcabədi Olimpiya İdman Kompleksi artıq açılışa hazırdır. Bu kompleks yaxın zamanlarda açılacaq. Gələn il də yeni komplekslərin açılışı nəzərdə tutulur. Bu idman obyekti Abşeron rayonu üçün çox böyük əhəmiyyət kəsb edir. Burada 1000 nəfərlik gözəl idman zalı, 1600 nəfərlik stadion, məşq zalları, boks, şahmat bölmələri, açıq idman meydançaları, kort var. Bir sözlə, burada idmanın əksər növləri ilə məşğul olmaq mümkündür. Bu, Abşeron rayonu üçün, idmançılar üçün gözəl bir hədiyyədir. Əminəm ki, həm rayon sakinləri, uşaqlar, yeniyetmələr, eyni zamanda, idmançılar da bu kompleksin imkanlarından istifadə edəcəklər. Beləliklə, bütün bölgələrdə müasir idman infrastrukturunun yaradılması istiqamətində növbəti önəmli addım atılır».

Azərbaycan Prezidenti qeyd edib ki, Abşeron rayonu günü-gündən inkişaf edir, son illər ərzində rayonda böyük quruculuq, abadlıq işləri görülüb, infrastruktur layihələri icra edilir: «Rayonda əsas infrastrukturla bağlı problemlər öz həllini tapıbdır. Rayonda 16 yaşayış məntəqəsini əhatə edən 7 yol layihəsi icra edilibdir, qazlaşdırma 100 faizdir, elektrik təchizatı ilə heç bir problem yoxdur. İçməli su problemi də tədricən həll olunur. Mənə verilən məlumata görə, Xırdalan şəhərinin su problemi həll olunubdur. Digər qəsəbələrdə də məsələ öz həllini tapacaq. İş yerləri yaradılır. Abşeron rayonunda 100-dən çox sənaye müəssisəsi fəaliyyət göstərir ki, o müəssisələrdə minlərlə insan işləyir. Sosial infrastruktur yaradılır, bu gözəl Olimpiya Kompleksi, 10-dan çox məktəb tikilib və təmir olunub. Bir sözlə, rayonun hərtərəfli inkişafı üçün çox böyük işlər görülür, yeni parklar, ictimai yerlər yaradılır, binalar təmir olunur. Növbəti sərəncamda təmirə ehtiyacı olan binaların da bərpası nəzərdə tutulur. Bir sözlə, Abşeron rayonu hərtərəfli inkişaf edir, gözəlləşir, abadlaşır. Növbəti illərdə rayonun sosial-iqtisadi inkişafı ilə bağlı əlavə tədbirlər görüləcək».

Sonra «Zəhmət-Ruzi» MMC-nin fəaliyyəti ilə tanış olan dövlətimizin başçısına Abşeron rayonu üzrə maliyyələşdirilmiş investisiya layihələri, o cümlədən müasir texnologiyalara əsaslanan investisiya layihələrinə ayrılan güzəştli kreditlər, istifadəyə verilən, tikilməkdə olan və inşası nəzərdə tutulan istehsal və emal müəssisələri barədə məlumat verilib. Bildirilib ki, Sahibkarlığa Kömək Milli Fondunun xəttilə Abşeron rayonu üzrə ümumi dəyəri 360 milyon manat olan 602 investisiya layihəsinin maliyyələşdirilməsinə 200 milyon manat güzəştli kredit verilib. Maliyyələşdirilmiş layihələr hesabına 8700 yeni iş yeri açılıb. Müasir texnologiyalara əsaslanan, ümumi dəyəri 261 milyon manat olan 39 investisiya layihəsinə isə 140,5 milyon manat güzəştli kredit ayrılıb. Nəticədə 3 logistik mərkəz, 7 quşçuluq təsərrüfatı, 14 istixana kompleksi, iki süd emalı zavodu, bir çörək zavodu, bir ət emalı, iki ət kəsimi müəssisəsi, bir mebel fabriki, bir kərpic zavodu və müasir texnologiyalara əsaslanan digər müəssisələr yaradılıb. Qeyd olunub ki, «Zəhmət-Ruzi» MMC-nin dəyəri 42 milyon manat olan logistika mərkəzindən, ət kəsimi, ət və süd emalı fabrikindən ibarət aqrar-sənaye kompleksinin ərsəyə gəlməsinə Sahibkarlığa Kömək Milli Fondunun xəttilə 8,3 milyon manat güzəştli kredit ayrılıb. MMC-nin 7 min tonluq logistika mərkəzi ən müasir avadanlıqla təchiz edilib. Burada illik kəsim gücü 1,8 min ton olan fabrik də fəaliyyət göstərəcək. Bundan başqa, saatda 2500 quş kəsimi gücünə malik olan fabrik üçün də avadanlıq gətirilib və ilin sonunadək quraşdırılması nəzərdə tutulub. İllik istehsal gücü 10 min tona çatan ət emalı sahəsində 60 çeşiddə məhsul istehsal edilir. Ət məhsullarının saxlanma şəraiti ən müasir standartlara uyğundur. İllik istehsal gücü 7 min ton olan süd emalı sahəsində 40 çeşiddə süd məhsulları, o cümlədən pasterizə edilmiş süd, pendir, xama, kəsmik, qatıq, dovğa, ayran və digər məhsullar hazırlanır. Tezliklə bu aqrar-sənaye kompleksində dondurma da istehsal olunacaq. Kompleksin xammala olan tələbatı Abşeron və digər rayonlarda fəaliyyət göstərən fermerlərin təsərrüfatlarında tədarük edilmiş məhsul hesabına təmin ediləcək. «Zəhmət-Ruzi» MMC-nin həyata keçirdiyi layihələr hesabına 150 yeni iş yeri yaradılıb və orta aylıq əməkhaqqı 500 manatdır. Burada istehsal edilən məhsulların Rusiyaya, Qazaxıstana və Asiya ölkələrinə ixracı ilə bağlı müvafiq tədbirlər görülür.

Həmin gün Prezident İlham Əliyev Abşeron rayonunun Masazır qəsəbəsində yeni inşa olunan 5 nömrəli tam orta məktəbin açılışında iştirak edib. Məlumat verilib ki, təhsil ocağının üçmərtəbəli binasının ümumi sahəsi 4600 kvadratmetrdən çoxdur. 1200 şagird yerlik yeni məktəbdə 41 sinif otağı var. Ən müasir avadanlıqla təchiz edilən məktəbdə fizika, kimya və biologiya laboratoriyaları, kitabxana, 163 yerlik akt zalı, həmçinin hər cür şəraiti olan yeməkxana yaradılıb. Burada iki emalatxanada da tədrisin yüksək səviyyədə təşkili üçün hərtərəfli şərait var. İdman zalı zəruri avadanlıqlarla təchiz edilib.

## Azərbaycan-Rusiya münasibətləri strateji xarakter daşıyır

Noyabrın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı ölkələrimizin dövlətlərarası münasibətlərindən məmnunluğunu ifadə edərək bildirib ki, bu münasibətlər praktiki olaraq bütün sahələri əhatə edir və çox yaxşı dinamikliyə malikdir: «Dövlət başçıları səviyyəsində müntəzəm görüşlər keçirilir. Bu il bir neçə görüş keçirilib. Eləcə də xarici siyasət idarələrinin başçıları və müvafiq qurumların rəhbərləri mütəmadi olaraq görüşürlər. Bütün bunlar göstərir ki, münasibətlər yüksək səviyyədədir. Həmçinin ticari-iqtisadi sahədə yaxşı nəticələri qeyd etmək istərdim. Bu il bizdə ticarət dövriyyəsi, qarşılıqlı sərmayə qoyuluşu artıb. Nəqliyyat sahəsində yeni imkanlar açılır. Biz bu istiqamətdə, energetika sahəsində fəal işləyirik. Əlbəttə, humanitar sahə də bizim ənənəvi əməkdaşlıq sahəsidir. Düşünürəm ki, bizim münasibətlərimiz bütün qonşular və tərəfdaşlar üçün nümunə ola bilər».

Azərbaycan Prezidenti ilə görüşmək imkanı əldə etdiyi üçün dövlətimizin başçısına minnətdarlığını ifadə edən Rusiyanın xarici işlər naziri Sergey Lavrov iki ölkə arasında münasibətlərin strateji xarakter daşıdığını, qarşılıqlı siyasi dialoqun artdığını, iqtisadi əlaqələrin inkişaf etdiyini, ticarət dövriyyəsinin 2017-ci ilin 9 ayında 60 faizdən çox artdığını vurğulayıb. Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışan rusiyalı diplomat təmsil etdiyi ölkənin rəhbərliyinin ATƏT-in Minsk qrupunun həmsədrlər üçlüyünün üzvü kimi bu düyünün açılmasına hərtərəfli kömək göstərməkdə və münaqişənin həlli istiqamətində irəliləyişi təmin etməkdə maraqlı olduğunu diqqətə çatdırıb. S.Lavrov tərəflər arasında konstruktiv danışıqlar prosesinin sürətləndirilməsi və müsbət nəticənin əldə olunması ilə bağlı Rusiya Federasiyasının ciddi səy göstərəcəyinə əminliyini ifadə edib.

## Əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb

Prezident İlham Əliyev noyabrın 16-da Qazaxıstan Respublikasının Baş nazirinin birinci müavini Askar Mamini qəbul edib.

Ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini bildirən dövlətimizin başçısı Qazaxıstan Prezidenti Nursultan Nazarbayevlə beynəlxalq tədbirlərdə keçirdikləri görüşləri xatırladaraq, onun Azərbaycana son rəsmi səfərini əlaqələrimizin inkişafında mühüm hadisə kimi dəyərləndirib. Prezident İlham Əliyev əməkdaşlığımızın daha da genişləndirilməsi üçün yaxşı potensialın mövcud olduğunu və artıq müsbət nəticələrin əldə edildiyini vurğulayıb.

Cənubi Qafqaz regionunda Azərbaycanın Qazaxıstan üçün strateji tərəfdaş ölkə olduğunu deyən Askar Mamin qeyd edib ki, ikitərəfli münasibətlərimizin inkişafı istiqamətində böyük potensial var və bu potensialın reallaşdırılması üçün birgə səylərin göstərilməsi çox önəmlidir. Qazaxıstanlı qonaq Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdıraraq deyib ki, bu nəqliyyat dəhlizi Asiya-Avropa istiqamətində transkontinental yükdaşımalarının inkişafı işinə böyük töhfə verir. O, əmin olduğunu bildirib ki, bu dəmir yolu xəttinin işə salınması ilə Azərbaycan, Qazaxıstan və ümumilikdə, transxəzər marşrutunun tranzit potensialı tam həcmdə həyata keçiriləcək. Görüşdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

## FIFA ilə əməkdaşlıq Azərbaycan futbolunun inkişafına mühüm töhfə verir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 20-də FIFA-nın prezidenti Canni İnfantinonu və təşkilatın baş katibi Fatma Samouranı qəbul edib.**




Dünya futbolunun aparıcı simaları ilə söhbət zamanı dövlətimizin başçısı Bakıda keçiriləcək FIFA İcraedici Futbol Sammitinin önəmini vurğulayıb, bu hadisənin azərbaycanlı futbol azarkeşləri tərəfindən də sevinclə qarşılandığını diqqətə çatdırıb. Prezident İlham Əliyev qeyd edib ki, bütün bunlar Azərbaycanın dünya futbol ailəsində özünəməxsus yerə malik olduğunu göstərir. Dövlətimizin başçısı bildirib ki, futbol Azərbaycanda prioritet sahələrdən biri olduğu üçün idmanın bu növünün inkişafı ilə bağlı xüsusi proqram qəbul edilib. Bakıda və Azərbaycanın digər bölgələrində müasir tələblərə cavab verən xeyli sayda stadion inşa edilib və bu gün futbolun inkişafı üçün ölkədə bütün lazımi infrastruktur yaradılıb.

Qonaqların diqqətinə çatdırılıb ki, ölkəmizdə futbola olan maraq sayəsində azarkeşlərin sayı durmadan artır, nəticə etibarilə futbol üzrə Azərbaycan milli komandası və klublar daha yaxşı oyun nümayiş etdirir. Dövlətimizin başçısı qeyd edib ki, FIFA prezidentinin və qurumun baş katibinin ölkəmizə səfəri Azərbaycanın idman sahəsində beynəlxalq əməkdaşlığa da öz töhfəsini verəcək.

Qəbul üçün minnətdarlığını ifadə edən FIFA prezidenti Canni İnfantino bildirib ki, Azərbaycan, sözün əsl mənasında, futbol ölkəsidir. FIFA və UEFA futbolun inkişafı ilə bağlı AFFA ilə birgə əməkdaşlıq edir və bu, futbol hərəkatının inkişafına töhfə verir. O, Bakının «Avro-2020»yə ev sahibliyi edəcək 13 şəhərdən biri olmasının əhəmiyyətini qeyd edərək vurğulayıb ki, Azərbaycanda futbol infrastrukturunun yaradılmasına və uşaq futboluna böyük önəm verilməsi bu idman növünün inkişafına gətirib çıxarıb. 2019-cu ildə Bakıda keçiriləcək UEFA Avropa Liqasının final matçı da Azərbaycan futboluna olan sayğının nəticəsidir. C.İnfantino futbol üzrə Azərbaycan milli komandasının və «Qarabağ» futbol klubunun son illər qazandığı uğurların və AFFA-nın fəaliyyətinin bir çox ölkələr üçün nümunə olduğunu vurğulayıb.

Sonra Canni İnfantino FIFA-nın xatirə hədiyyələrini dövlətimizin başçısına təqdim edib.

### BU NÖMRƏMİZDƏ

AZƏRBAYCAN MƏDƏNİYYƏTLƏRARASI VƏ DİNLƏRARASI DİALOQ MƏRKƏZLƏRİNDƏN BİRİDİR 2

FƏRDİ ƏMƏK MÜNASİBƏTLƏRİNİN HÜQUQİ MÜSTƏVİDƏ HƏLLİ 3

AZƏRBAYCAN E-XİDMƏTLƏR ÜZRƏ BEYNƏLXALQ MÖVQEYİNİ YAXŞILAŞDIRIB 4

«ASAN İMZA» İSTİFADƏÇİ İD-sini NECƏ DƏYİŞDİRMƏLİ... 5

# Azərbaycan mədəniyyətlərarası və dinlərarası dialoq mərkəzlərindən biridir

**Noyabrın 14-də Parisdə, Royal Pavilyonda Azərbaycanın paytaxtı Bakının Beynəlxalq Sərgilər Bürosunun 2025-ci ildə keçiriləcək Ümumdünya Sərgisinə namizəd şəhər olması münasibətilə qəbul təşkil edilib. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva tədbirdə iştirak edib.**




Tədbirdə çıxış edən Birinci vitse-prezident Mehriban Əliyeva bildirib ki, Azərbaycan 2000-ci ildən etibarən «Expo» hərəkatının fəal üzvüdür. Pavilyonlarımız son üç sərgidə - 2015-ci ildə pavilyonumuzu üç milyondan çox insanın ziyarət etdiyi Milanda, 2016-cı ildə Antalyada və 2017-ci ildə Astanada mükafatlar qazanıb. Beynəlxalq Sərgilər Bürosunun işinə sadə töhfəmizin bu cür qiymətləndirilməsindən qürur duyuruq. Mehriban Əlieva qeyd edib ki, ümumdünya sərgisi bütün mədəniyyətlərə bərabərlik və hörmət prinsipinə əsaslanan müxtəlifliyi sərgiləmək üçün bir platformadır: «Bu sərgilər qlobal müzakirələr və əməkdaşlıq üçün bütün beynəlxalq ictimaiyyəti nadir bir məkanda bir araya gətirir. Buna görə də əminəm ki, Azərbaycan bu universal platformaya ev sahibliyi etmək üçün ən yaxşı məkanlardan biridir. Əsrlər boyu ölkəmiz qitələrin və sivilizasiyaların kəsişməsində yerləşib. Avropa və Asiyanın qovuşuğunda yerləşən Azərbaycan Şərq ilə Qərb, Şimal ilə Cənub arasında ticari, siyasi və mədəni körpü rolunu oynayır. İki min il ərzində qədim İpək Yolu bugünkü Azərbaycandan keçib. Ümumdünya Sərgisi kimi bu yol bilik və bacarıqların paylaşılması üçün əhəmiyyətli bir dəhliz olub. Bu, ölkəmizin tarixini, mədəniyyətini və tolerant imicini formalaşdırıb».

Birinci vitse-prezident qeyd edib ki, bu gün Azərbaycan dünyada mədəniyyətlərarası və dinlərarası dialoq mərkəzlərindən biri hesab olunur: «Biz hazırda dünyanın üzləşdiyi bir çox ciddi problemlərin daha səmərəli həll olunmasına imkan verəcək müxtəlif mədəniyyətlərə və dinlərə mənsub olan insanlar arasında daha yaxşı anlaşmanı təşviq etmək üçün beynəlxalq platforma yaradırıq. Tariximiz və bugünkü reallıq bunun mümkünlüyünü sübut edir. Mən Azərbaycanın təşəbbüsü ilə başlanan və BMT, YUNESKO, Avropa Şurası, BMT-nin Sivilizasiyalar Alyansı, Ümumdünya Turizm Təşkilatı və İSESKO kimi beynəlxalq təşkilatlar tərəfindən dəstəklənən Dünya Mədəniyyətlərarası Dialoq Forumunu misal göstərə bilərəm. Bu siyasətə uyğun olaraq, biz 2016-cı ili Azərbaycanda «Multikulturalizm İli», 2017-ci ili isə «İslam Həmrəyliyi İli» elan etdik. 2015-ci ildə keçirilən birinci Avropa Oyunları və bu ilin əvvəlində təşkil olunan dördüncü İslam Həmrəyliyi Oyunları Azərbaycanın mədəniyyətlərarası dialoqa verdiyi digər töhfədir».

Mehriban xanım Əliyeva respublikamızın 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra real təhlükə yaradan böyük siyasi, iqtisadi və humanitar çağırışlarla üzləşdiyini diqqətə çatdırıb. Qeyd edib ki, bunlardan ən ciddisi qonşu Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü idi və bunun nəticəsində ölkəmizin ərazisinin 20 faizi, o cümlədən Dağlıq Qarabağ bölgəsi və ətraf yeddi rayon işğal olunub və işğal hələ də davam edir. Ermənistan tərəfindən həyata keçirilən etnik təmizləmə nəticəsində bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası erməni qoşunlarının Azərbaycanın ərazisindən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul edib. Bu qətnamələr yerinə yetirilməlidir və Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır.

Azərbaycanın Birinci vitse-prezidenti bu illər ərzində ölkəmizin keçdiyi inkişaf yoluna nəzər salaraq qeyd edib ki, yeni siyasi sistemə və bazar iqtisadiyyatına keçidin yaratdığı əlavə çağırışlara baxmayaraq, Azərbaycan uğurlu inkişaf strategiyasını tətbiq edərək, zəruri siyasi və iqtisadi islahatları həyata keçirə bilib: «Nəticədə, 2004-cü ildən 2014-cü ilədək ümumi daxili məhsulumuzun həcmi üç dəfə artdı və Azərbaycan dünyanın ən sürətlə inkişaf edən iqtisadiyyatlarından birinə çevrildi. Bu müddətdə 1 milyon 600 mindən çox iş yeri yaradıldı. İşsizliyin səviyyəsi 5 faizdir - bu, dünyada ən aşağı göstəricilərdən biridir. Həmin dövr ərzində biz yoxsulluğun səviyyəsini 40 faizdən 5 faizədək azaltmağa nail olduq. Ölkə üzrə 3 mindən çox məktəb, 600-dən çox xəstəxana və 50-dən artıq idman kompleksi inşa edildi. 2009-cu ildə Azərbaycan Dünya Bankı tərəfindən «Dünyanın aparıcı islahatçı ölkəsi» kimi qiymətləndirildi. Dünya İqtisadi Forumunun «2017-2018 Qlobal Rəqabətlilik İndeksi» Azərbaycanı 137 ölkə arasında 35-ci yerə layiq gördü».

Mehriban Əliyeva qeyd edib ki, Azərbaycan öz nadir geostrateji mövqeyindən faydalanaraq, Avropa ilə Asiya arasında qarşılıqlı əlaqəni yaradan əsas tərəfə çevrilib və Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verən ölkələrdən biri olub: «Azərbaycan Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, 2017-ci il oktyabrın 30-da açılışı qeyd edilən Bakı-Tbilisi-Qars dəmir yolu xətti kimi bir sıra nəhəng beynəlxalq infrastruktur layihələrinin təşəbbüskarı olub və onları həyata keçirib. Uzunluğu 850 kilometr olan Bakı-Tbilisi-Qars dəmir yolu xətti Avropa ilə Asiyanı birləşdirən ən qısa yoldur. Bu gün biz, həmçinin beynəlxalq bazarlar üçün yeni təbii qaz mənbəyi olan və Avropanın enerji təhlükəsizliyini gücləndirən, dəyəri 40 milyard ABŞ dolları olan Cənub Qaz Dəhlizinin reallaşmasında aparıcı rol oynayırıq. Bu nümunələrin hər zaman ən böyük dəyəri - müxtəlif qitələr, ölkələr, mədəniyyətlər və sivilizasiyalar arasında dialoqu, bacarıq və biliklərin mübadiləsini təşviq edən qədim İpək Yolunun bərpasına Azərbaycanın verdiyi əməli töhfəni sübuta yetirir».

Birinci vitse-prezident bildirib ki, Azərbaycan yüksələn xətlə inkişaf edən dövlətdir: «İndi ölkəmizin iddiası 2025-ci ildə Ümumdünya Sərgisinə ev sahibliyi etmək və bütün dünyanı qəbul etmək hüququnu qazanmaqdır. Bizim «İnsan kapitalının inkişaf etdirilməsi, daha yaxşı gələcəyin qurulması» mövzusu həqiqətən hamını narahat edən bir məsələdir. Bu mövzu dövrümüzün əsas çağırışını - texnologiyanın və artan bağlılığın bəşəriyyətə təsirini əhatə edir. «Bakı Expo 2025» sərgisində düşünürük ki, texnologiyadan daha uzağa baxmaq, diqqətimizi rəhbərlərdən sıravi vətəndaşlara yönəldərək iqtisadiyyatların, cəmiyyətlərin və yaradıcılığın aparıcı qüvvəsi olan insanlar üzərində cəmləşdirmək mühüm əhəmiyyət kəsb edəcək. Biz insanları - dünyada ən güclü resurs olan insan kapitalını universal müzakirəyə çıxaracağıq».

Mehriban xanım Əliyeva Bakıda keçiriləcək Ümumdünya Sərgisinin Beynəlxalq Sərgilər Bürosuna yeni bazarda yeni auditoriya ilə təmasa girmək imkanı verəcəyinə əminliyini ifadə edərək bildirib ki, bu sərgi yeni bölgədə, yeni dövrdə yeni bir tarix yazmaq imkanı yaradacaq. Bu sərgi, həmçinin, Azərbaycan xalqına bizim Beynəlxalq Sərgilər Bürosunun mümkün olan ən yaxşı tərəfdaşlarından biri ola biləcəyini nümayiş etdirmək fürsətini verəcək: «Təklifimiz uğurlu olarsa, Bakı bütün Şərqi Avropa, Qafqaz və Xəzər hövzəsi regionunda Ümumdünya Sərgisinə ev sahibliyi edəcək ilk şəhər olacaq. Biz sərgi məkanının yaradılmasına və istismarına bütün lazımi vəsaiti ayırmağa, həmçinin inkişaf etməkdə olan ölkələrin sərgidə iştirakını dəstəkləməyə hazırıq. Bakı sərgisi 26 illik müstəqillik dövründə Azərbaycanın əldə etdiyi nailiyyətlərin tanıdılması üçün daha bir imkan olacaqdır. Bu, həmçinin bütün gənc, müstəqil ölkələr üçün çox güclü bir stimul olacaqdır. 2025-ci ildə Ümumdünya Sərgisini təşkil etmək bizim səmimi istəyimizdir. Əgər bu şərəfə layiq görüləriksə, biz bütün dünyanı Azərbaycanda və gözəl şəhərimiz olan Bakıda qürurla qarşılayacağıq».

Həmin gün Bakının «Expo 2025» Ümumdünya Sərgisinə namizəd şəhər olması şərəfinə təşkil edilən qəbulda Azərbaycanın və Fransanın tanınmış ictimai-siyasi xadimləri, diplomatik korpusun nümayəndələri və digər nüfuzlu şəxslər iştirak ediblər. Tədbir zamanı qurulmuş xüsusi monitorlarda Azərbaycan haqqında nümayiş olunan videoçarxlar, ölkəmiz barədə nəşrlər böyük maraqla qarşılanıb. Sonda tədbir iştirakçılarına Azərbaycanla bağlı suvenirlər, paytaxtımızın «Expo 2025»ə namizədliyinə həsr olunmuş kataloqlar və digər xatirə hədiyyələri təqdim edilib.

# Regionlarda vergi orqanlarının fəaliyyətinə dair zona müşavirələri keçirilib

Noyabrın 15-dən 18-dək Sumqayıt, Şirvan, Yevlax və Qəbələ şəhərlərində dövlət vergi orqanlarında vətəndaş müraciətlərinə baxılması vəziyyəti, ərazi vergi orqanları üzrə müəyyən olunmuş vergi proqnozlarının icrasının təmin edilməsi, eləcə də cari ilin 10 ayı ərzində görülmüş işlər və 2018-ci ildə ərazi vergi orqanlarının qarşısında duran vəzifələrə həsr olunmuş zona müşavirələri keçirilib.



**Ərazi vergi orqanlarının fəaliyyətinin əsas istiqamətləri üzrə aparılmış konkret təhlillərin nəticələri, aşkar edilmiş nöqsanlar və onların aradan qaldırılması yolları barədə məruzələr təqdim olunub**

Ölkəmizin şəhər və rayonlarını əhatə edən ərazi vergi departament və idarələrinin rəhbər vəzifəli şəxslərinin iştirakı ilə keçirilən müşavirələrdə vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahib Ələkbərov çıxış edərək 2017-ci ilin yanvar-oktyabr ayları ərzində ərazi vergi orqanları üzrə proqnoz tapşırıqlarına ümumilikdə 109,1 faiz əməl olunduğunu, proqnoz tapşırıqlarının bütün şəhər və rayonlar üzrə icra edildiyini diqqətə çatdırıb, bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə regionların sosial-iqtisadi inkişafı davamlı olaraq təmin edilib. Qeyd olunub ki, hazırda regionlarda iqtisadiyyatın əsasını kənd təsərrüfatı məhsullarının istehsalı təşkil etdiyindən, bu sahədə fəaliyyət göstərən sahibkarlara dövlət dəstəyini təmin etmək məqsədilə 1999-cu ildən, torpaq vergisi istisna olmaqla, kənd təsərrüfatı bütün vergilərdən azad edilib. Buna baxmayaraq, son 10 il ərzində ərazi vergi orqanları üzrə vergi daxilolmaları 7 dəfəyədək artaraq 86,6 milyon manatdan 600,8 milyon manata çatırılıb.

Müşavirə iştirakçılarına «Dövlət vergi orqanlarında vətəndaş müraciətlərinə baxılması vəziyyəti, vergi orqanları üçün müəyyən edilmiş proqnozların icrasının təmin olunması və vergi inzibatçılığına dair bəzi məsələlər haqqında» Vergilər Nazirliyinin Kollegiyasının qərarı ilə cari ilin son iki ayında və 2018-ci ildə vətəndaş müraciətlərinə baxılması və dövlət vergi orqanları üzrə müəyyən edilmiş proqnoz tapşırıqlarının icrasının təmin olunması ilə bağlı verilmiş göstərişlərin mahiyyəti izah edilib. Tədbirlər zamanı Vergilər Nazirliyinin hər bir ərazi vergi orqanının fəaliyyətinin əsas istiqamətləri üzrə aparılmış konkret təhlillərin nəticələri, aşkar edilmiş nöqsanlar və onların aradan qaldırılması yolları barədə məruzələr təqdim olunub.

Ərazi vergi orqanlarının rəhbərləri və digər vəzifəli şəxsləri fəaliyyətlərində yol verdikləri nöqsanların aradan qaldırılması və müəyyən edilmiş vəzifələrin icrasının təmin olunması üçün görülən tədbirlər barədə məlumat veriblər.

Müzakirələrdə vətəndaş müraciətlərinə baxılması zamanı vergi ödəyicilərinin məmnunluq səviyyəsinin yüksəldilməsinin vacibliyi, vergi ödəyiciləri tərəfindən vergilərin könüllü surətdə ödənilməsinə keçidin sürətləndirilməsi, səyyar, xüsusilə kameral vergi yoxlamalarının, eləcə də operativ vergi nəzarəti tədbirlərinin sayının azaldılması, aparılan yoxlama və nəzarət tədbirlərinin səmərəliliyinin artırılması, şəxsi heyətin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, vergi orqanlarının müxtəlif strukturları arasında koordinasiyanın daha səmərəli təşkili, vergi borclarının alınması üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərin effektivliyinin artırılması, vergi orqanlarında vergi borclarının alınmasına cavabdeh olan strukturların, habelə vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu idarələri və şöbələrinin fəaliyyətində korrektələr edilməsinin, şəxsi heyətlə aparılan işlərin gücləndirilməsinin zəruriliyi xüsusi olaraq vurğulanıb. Vergi uçotunun dəqiqləşdirilməsi və şəffaflaşdırılması istiqamətində aparılan işlər zamanı ortaya çıxan çətinliklər, vergi ödəyicilərinin bəzi kateqoriyaları, xüsusilə idxal və ixracla məşğul olan vergi ödəyicilərinin dövlət tərəfindən müəyyən olunmuş vergiləri dövlət büdcəsinə vaxtında və tam həcmdə ödəmələrini təmin etməklə bağlı məsələlər ətraflı müzakirə olunub.

Zona müşavirələrinin keçirildiyi şəhərlərdə nazir müavini S.Ələkbərov Azərbaycan Respublikasının Prezidentinə və birinci Birinci vitse-prezidentinə müraciət ünvanlamış vergi ödəyicilərini qəbul edib, onların qaldırdıqları məsələlərin həlli üçün konkret tədbirlər görülüb.

# Vergi orqanları şəffaf olduğu kimi, sahibkarlar da şəffaf fəaliyyət göstərməlidirlər

**Noyabrın 17-də Yevlax şəhərində yerləşən 11 saylı Ərazi Vergilər Departamentində kənd təsərrüfatı məhsullarının ixracı ilə məşğul olan sahibkarlarla Vergilər Nazirliyi rəsmilərinin görüşü keçirilib.**

Tədbirdə çıxış edən vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahib Ələkbərov ölkəmizdə sahibkarlığın inkişafının dövlətin müəyyən etdiyi iqtisadi siyasətin əsas prioritetlərindən olduğunu vurğulayıb. Bildirilib ki, hazırda ölkəmizdə milli sahibkarlığın inkişafı üçün əlverişli vergi mühiti yaradılıb, vergi ödəyicilərinin geniş fəaliyyəti üçün hərtərəfli şərait mövcuddur. Vergi Məcəlləsinə edilmiş dəyişikliklərin böyük qismi sahibkarların geniş fəaliyyəti üçün əlverişli imkan yaradır. Bununla yanaşı, dövlət ixracla məşğul olan sahibkarları müxtəlif stimullaşdırıcı və təşviqedici vasitələrlə həvəsləndirir, onlara ixrac təşviqi vəsaiti ödənilir.

Aparılan məqsədyönlü tədbirlərin nəticəsidir ki, son illərdə Azərbaycandan xarici ölkələrə ixrac olunan qeyri-neft məhsullarının, o cümlədən meyvə-tərəvəzin həcmi əhəmiyyətli dərəcədə artıb və bu prosesdə 11 saylı Ərazi Vergilər Departamentinin əhatə dairəsinə daxil olan rayonların sahibkarlarının önəmli payı var. Bu bölgədə ixracla məşğul olan sahibkarlar tərəfindən 2017-ci ilin ilk 9 ayı ərzində xarici ölkələrə göndərilmiş mənsulların dəyəri 50 milyon manatdan artıqdır. Buna baxmayaraq, ödənilən verginin məbləği gözləniləndən dəfələrlə azdır.

Görüşdə qeyd edilib ki, 11 saylı Ərazi Vergilər Departamentində qeydiyyatda olan sahibkarlar tərəfindən onları narahat edən problemlərlə bağlı müraciətlər daxil olduğuna görə, Vergilər Nazirliyi vəziyyətlə yerindəcə tanış olmaq üçün kənd təsərrüfatı məhsullarının ixracatçıları ilə görüş təşkil etmək qərarına gəlib. Əsas məqsəd region sahibkarlarını narahat edən məsələləri öyrənmək, onların təkliflərini dinləmək və qarşıya çıxan çətinlikləri dialoq yolu ilə həll etməkdir. Sahib Ələkbərov bəzi iradları da sahibkarların diqqətinə çatdıraraq bildirib ki, bir sıra hallarda vergi ödəyiciləri öz konstitusion borcunu yerinə yetirmək əvəzinə, vergidən və məsuliyyətdən yayınmaq üçün müxtəlif yollar axtarırlar. Bəzən kənd təsərrüfatı məhsullarının ixracı prosesinə bu işlə faktiki əlaqəsi və lazımi səriştəsi olmayan insanları cəlb edir, onların əli ilə vergi qanunvericiliyini kobud surətdə pozmaqla vergilərdən yayınmağa cəhd göstərirlər.

Görüş zamanı ixracatçıların rəy və təklifləri dinlənilib. Sahibkar Məzahir Əliyev Vergi Məcəlləsində kənd təsərrüfatı məhsulları istehsalçılarının vergidən azad olunması ilə bağlı müddəaya toxunub: «Məcəllənin 102.1.11. bəndində (bilavasitə kənd təsərrüfatı məhsullarının istehsalından alınan gəlirlər) kənd təsərrüfatı məhsullarının satışından əldə edilən gəlirlərin vergidən azad olunması təsbit edilib. Amma bölgələrdə bəzi sahibkarlar həmin maddənin şərhini düzgün başa düşmədiyindən vergi mübahisələri yaranır». Sahibkarın qaldırdığı məsələyə aydınlıq gətirilərək izah edilib ki, kənd təsərrüfatı məhsullarının istehsalçıları 1999-cu ildən, torpaq vergisi istisna olmaqla, digər vergilərin ödənilməsindən azad ediliblər. Amma bəzi şəxslər bu güzəştlərdən sui-istifadə edərək kənd təsərrüfatı məhsullarının emalı ilə də məşğul olurlar. Ona görə də 2017-ci il yanvarın 1-dən qüvvəyə minmiş yeni Vergi Məcəlləsində kənd təsərrüfatı istehsalı və emalı üzrə sərhədlər müəyyənləşdirilib.

Sahibkar Ələmdar Həşimov ixracla məşğul olan sahibkarların vergiləri könüllü şəkildə ödəməkdə maraqlı olduqlarını qeyd edərək bildirib ki, şəffaf işlədikdə vergi orqanı ilə problem də yaranmır. İxracatçıların daşınma və digər xərclərlə bağlı sənədləşmə işlərində mövcud çətinliklər vergilərin həcminin tam müəyyənləşdirilməsinə mane olur.

Sahibkar Zabil Talıbov və Zöhrab Hidayətov ixrac etdikləri malın daşınması ilə bağlı bəzi xərc sənədlərini təqdim edə bilmədiklərini etiraf edərək, bu sahədə pərakəndəliyin olduğunu diqqətə çatdırıblar.

Müzakirələr zamanı sahibkarlara izah olunub ki, xərc sənədlərinin təqdim edilməməsi onların vergidən yayınmasına əsas verə bilməz. Nazirlər Kabinetinin təsdiq etdiyi 2001-ci il 1 mart tarixli 55 nömrəli qərarına əsasən («Vergi ödəyicisinin mənfəətini birbaşa müəyyən etmək mümkün olmadığı hallarda mənfəətin hesablanması Qaydalarının təsdiq edilməsi barədə»), sahibkarın xərc sənədləri olmadıqda, yaxud xərclərini müəyyən etmək mümkün olmadıqda, vergilər bu qaydalara uyğun olaraq hesablanır. Əgər vergi ödəyicisi bu vergini hesablayıb dövlət büdcəsinə ödəmirsə, Vergi Məcəlləsinin müvafiq maddəsinin tələblərinə uyğun olaraq, vergi orqanı səyyar vergi yoxlaması həyata keçirməklə həmin hesablanmış verginin ödənilməsini təmin edir, vəsaitin 50%-i mislində maliyyə sanksiyası tətbiq edir.

Sahibkarlara tövsiyə olunub ki, onlar qanuni fəaliyyət göstərən logistika şirkətləri, daşınma xərclərinin təsdiqinə dair sənədlər verən nəqliyyat müəssisələri, daşıyıcılarla işləsinlər. Ölkəmizdə aqroparklar yaradılıb, «Ərzaq məhsullarının tədarükü və təchizatı» Açıq Səhmdar Cəmiyyəti fəaliyyət göstərir. Tədarükçülər çətinliklərlə üzləşmək istəmirlərsə, həmin qurumların köməyindən istifadə edə bilərlər və bununla da öz işlərini asanlaşdırmış olarlar.

Qarşılıqlı dialoq və müzakirə şəraitində keçən görüşdə ixracatçıların hər bir fikri diqqətlə dinlənilib, onları narahat edən bir çox məsələlərə aydınlıq gətirilib, irəli sürdükləri təkliflərə mövcud qanunvericiliyə uyğun olaraq baxılacağı bildirilib.

Görüşə yekun vuran vergilər nazirinin müavini Sahib Ələkbərov ixracatçıları dürüst və düzgün uçot sistemi qurmağa dəvət edib. Bildirilib ki, hazırda ƏDV ödəyiciləri üçün elektron qaimə-faktura tətbiq olunur, 2018-ci il yanvarın 1-dən isə bu, bütün vergi ödəyicilərinə tətbiq olunacaq. Bu, sahibkarlardan öz fəaliyyətlərini şəffaflaşdırmağı tələb edir.

**Elbrus CƏFƏRLİ**

# Azərbaycanın valyuta ehtiyatları artır

Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında dövlətimizin başçısı bildirib ki, Azərbaycanın valyuta ehtiyatları ölkəmizin iqtisadi və siyasi müstəqilliyini şərtləndirən strateji vasitədir. Yəni hər bir dövlətin valyuta ehtiyatları onun iqtisadi və siyasi müstəqilliyinin, bir növ, təminatçısıdır. Çünki ölkənin valyuta ehtiyatları yoxdursa, dərhal ən müxtəlif beynəlxalq maliyyə institutları, ilk növbədə bir qədər cəlbedici, sonrakı mərhələdə isə ağır şərtlərlə borc verməklə dövlətləri kredit və borclarla yükləyirlər. Bununla da yenidən iqtisadiyyatı dirçəltmək üçün məşəqqətli bir yol keçmək lazım gəlir. Məhz bu məsələnin həssaslığını və hazırkı mərhələdə nə dərəcədə təhlükəli olduğunu deyən dövlətimizin başçısı bu gün Azərbaycanın 42 milyard ABŞ dolları həcmində valyuta ehtiyatının olduğunu, təkcə 2017-ci ilin 9 ayı ərzində bu artımın 4,5 milyard dolları ötdüyünü diqqətə çatdırıb.

Müharibə vəziyyətində olan bir ölkə üçün valyuta ehtiyatlarının qorunması başlıca strateji məsələdir. Ekspertlərin hesablamalarına görə, 42 milyard ABŞ dolları həcmində valyuta ehtiyatı ölkənin ümumi daxili məhsulundan (ÜDM) 12% çox olmaqla, 5 illik idxalı maliyyələşdirməyə imkan verir.

***Neft Fondunun aktivləri 36 mlrd. manatı ötüb***

Azərbaycan Respublikası Dövlət Neft Fondundan (ARDNF) verilən məlumata görə, 2017-ci il oktyabrın 1-nə fondun aktivləri ilin əvvəlinə (33 mlrd. 147,0 milyon ABŞ dolları) nisbətən 8,67% artaraq 36 milyard 20 milyon ABŞ dollarına bərabər olub. Aktivlərin artımı fondun büdcə gəlirləri, o cümlədən vəsaitlərin idarə edilməsindən əldə olunan gəlirləri və investisiya portfelinin tərkib valyutalarının məzənnə dəyişikliyi fərqi hesabına olub. Bu ilin yanvar-sentyabr ayları ərzində isə ARDNF-nin büdcə gəlirləri 8.793,4 milyon manat, büdcə xərcləri isə 6.911,7 milyon manat təşkil edib. Sözügedən dövr ərzində fondun neft və qaz sazişlərinin həyata keçirilməsi ilə bağlı gəlirləri 7.976,7 milyon manat, o cümlədən mənfəət neftinin və qazın satışından 7.957,8 milyon manat, bonus ödənişləri 2,4 milyon manat, akrhesabı ödənişləri 3,6 milyon manat, tranzit gəlirləri 12,9 milyon manat təşkil edib. Fondun vəsaitinin idarə olunmasından əldə edilən gəlirlər 816,7 milyon manata bərabər olub. Valyuta məzənnələrinin dəyişməsindən yaranan fərqlə bağlı büdcədənkənar gəliri 582,4 milyon manat təşkil edib.

Hesabat dövrü ərzində ARDNF-nin 2017-ci il büdcəsinin icrası çərçivəsində 4.300,0 milyon manat vəsait dövlət büdcəsinə transfert edilib. Qaçqın və məcburi köçkün ailələrinin məskunlaşdırılması və sosial-məişət vəziyyətinin yaxşılaşdırılması üzrə tədbirlərin həyata keçirilməsinə 82,5 milyon manat, Samur-Abşeron suvarma sisteminin yenidən qurulmasına 39,5 milyon manat, Bakı-Tbilisi-Qars yeni dəmir yolu layihəsinin maliyyələşdirilməsinə 17,2 milyon manat vəsait ayrılıb. Həmçinin, 11,2 milyon manat «2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı»nın maliyyələşdirilməsinə yönəldilib. Makroiqtisadi sabitliyin təmin olunması məqsədilə 2.448,3 milyon manat Mərkəzi Banka transfert edilib. Cari ilin yanvar-sentyabr ayları ərzində fondun idarə edilməsi ilə bağlı xərcləri 13 milyon manat olub.

***Mərkəzi Bankın sərəncamında olan rəsmi valyuta ehtiyatlarının həcmi artıb***

Mərkəzi Bankın (MB) valyuta ehtiyatları noyabrın 1-nə 5 milyard 200,7 milyon ABŞ dolları təşkil edib. Statistika göstərir ki, ölkəmizdə valyuta sabitliyi təmin olunandan sonra MB-nin də valyuta ehtiyatları aylar üzrə sürətlə artır.

***Qızıl-gümüş hasilatında da artım qeydə alınıb***

2017-ci ilin yanvar ayının 1-nə olan göstəriciyə əsasən, Azərbaycanın 21,9 ton qızıl-valyuta ehtiyatı var. Beynəlxalq Valyuta Fondunun açıqladığı statistikada qeyd edilir ki, ümumilikdə, Azərbaycanın strateji valyuta ehtiyatlarının 12,8%-i qızıl ehtiyatının payına düşür. Bununla da dünya ölkələri arasında qızıl-valyuta ehtiyatlarının həcminə görə Azərbaycan 60-cı yerdə qərarlaşıb.

Yeri gəlmişkən bu ilin yanvar-oktyabr aylarında ölkədə 5.107,5 kq qızıl hasil olunub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 3,2 dəfə çoxdur. Gümüş hasilatı isə illik müqayisədə 42,2% artaraq 433,5 kq təşkil edib.

Hazırda Azərbaycanda qızıl Daşkəsən («AzerGold» QSC tərəfindən) və Gədəbəy (Böyük Britaniyanın «Anglo-Asian Mining» şirkəti tərəfindən) rayonlarında hasil olunur. «Anglo-Asian Mining» Azərbaycanda 1997-ci il avqustun 21-də imzalanmış PSA (Production Sharing Agreement/Hasilatın Pay Bölgüsü) tipli müqavilə çərçivəsində hasilatla məşğul olur. Müqavilə 6 yatağın - Naxçıvanda 1, Gədəbəydə 2, hazırda erməni işğalı altında olan Kəlbəcər və Zəngilanda 3 yatağın işlənməsini nəzərdə tutur. Müqavilədə Azərbaycanın payı 51%, Böyük Britaniya şirkətinin payı isə 49% təşkil edir.

**Rəşad SADIQOV**




**Hesablamalarına görə, 42 milyard ABŞ dolları həcmində valyuta ehtiyatı ölkənin ümumi daxili məhsulundan (ÜDM) 12% çox olmaqla, 5 illik idxalı maliyyələşdirməyə imkan verir**

# Qida Təhlükəsizliyi Agentliyi yaradıldı

***Prezident İlham Əliyevin 13 noyabr 2017-ci il tarixli fərmanı ilə «Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə» təsdiq edilib. Fərmana əsasən, yeni agentlik 2018-ci il yanvar ayının 1-dən fəaliyyətə başlayacaq.***

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Strateji Planlaşdırma və İnkişaf Departamentinin rəhbəri Ramil Hüseynin sözlərinə görə, agentliyin yaradılması prosesində müasir çağırışlar və yeni təşəbbüslər nəzərə alınmaqla dəyər zəncirinin bütün mərhələlərini əhatə edən və risklərin təhlili yanaşmasına əsaslanan qida təhlükəsizliyi sisteminin formalaşdırılması hədəflənir: «Agentliyin fəaliyyətə başlaması bu sahədə idarəetmənin səmərəliliyini və optimallığını təmin edəcək, pərakəndəliyi və təkrarlanmaları aradan qaldıracaq. Qida təhlükəsizliyi ilə bağlı vahid idarəetmənin tətbiqi resurslara qənaət olunmasına, istehlakçı maraqlarının qorunmasına, ixrac və idxal proseslərində sənədləşmənin asanlaşmasına, xarici ölkələrə ixrac edilən qida məhsullarının qida təhlükəsizliyi sertifikatı ilə təmin edilməsinə, idxal olunan qida məhsullarının təhlükəsizliyinin təmin edilməsinə, sahibkarlıq subyektlərində yoxlamaların azaldılmasına və şəffaflaşdırılmasına, genetik modifikasiya olunmuş qida məhsullarının ölkəyə idxalına nəzarətin gücləndirilməsinə səbəb olacaq».

Qeyd edək ki, bütün maraqlı tərəflərin iştirakçılığına və riskəsaslı yanaşmaya əsaslanan qida təhlükəsizliyi sisteminin yaradılması, ilk növbədə, Azərbaycan vətəndaşlarının keyfiyyətli qida məhsulları ilə təminatına xidmət edəcəkdir. Bununla yanaşı, Prezidentin müvafiq fərmanı ilə Qida Təhlükəsizliyi Agentliyinin tabeliyində yaradılacaq publik hüquqi şəxs statuslu Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu qida məhsullarının təhlükəsizliyi sahəsində elmi-praktiki araşdırmaların aparılması, elmi prinsiplərə əsaslanan risk qiymətləndirilməsinin həyata keçirilməsi, qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların layihələrinin hazırlanması və digər müvafiq fəaliyyətləri həyata keçirəcək. Agentliyin fəaliyyətə başlaması, həmçinin, gələcəkdə ölkənin beynəlxalq reytinqlərdə irəliləməsinə də səbəb olacaq: ölkənin Qlobal Rəqabətlilik İndeksində «İnstitutlar», «Səhiyyə və ibtidai təhsil», «Əmtəə bazarının effektivliyi» adlı alt indikatorları üzrə mövqeyinin yaxşılaşdırılmasına birbaşa və dolayı təsir edəcəkdir.

Millət vəkili Azər Badamovun fikrincə, Azərbaycanda Qida Təhlükəsizliyi Agentliyinin yaradılması ölkədə aparılan iqtisadi islahatların tərkib hissəsi kimi sahibkarlıq mühitinin inkişaf etdirilməsinə, biznes fəaliyyətinin yaxşılaşdırılmasına, idxal-ixrac proseslərinin müasir standartlara uyğun təşkil edilməsinə, istehsal olunan malların keyfiyyətinin sertifikatlaşdırılmasının təşkilinə və ən əsası, vətəndaşların etibarlı, təhlükəsiz qida məhsulları ilə təminatına nəzarətin vahid mərkəzdən idarə olunmasına imkan verəcəkdir: «İndiyədək müxtəlif dövlət qurumlarının nəzarətində olan bu sahədə pərakəndəliyin hökm sürməsi lazımsız yoxlamalarına, sahibkarların işinə süni müdaxilələrə gətirib çıxarır və bəzi neqativ hallara yol açırdı. Yeni qurum isə yüksək elmi-texniki potensiala malik olacaq ki, bu da ölkədə istehsal olunan ixrac yönümlü mallara beynəlxalq standartlara uyğun sertifikatların verilməsinə və ixracın keyfiyyətinin təsdiqi ilə bağlı çətinliklərin aradan qaldırılmasına səbəb olacaq. 2017-ci ilin əvvəlindən həyata keçirilməsinə başlanılan iqtisadiyyatın 11 əsas sektoru üzrə təsdiq olunmuş strateji yol xəritələrində müəyyən olunmuş hədəflərin vaxtında icra edilməsi üçün ölkə başçısının fərman və sərəncamları ilə yaradılmış bir neçə yeni dövlət qurumları Azərbaycan iqtisadiyyatının neftdən asılılığını aradan qaldıracaq və ölkədə şəffaf, keyfiyyətli fəaliyyəti özündə ehtiva edən yeni iqtisadi vəziyyəti təmin edəcəkdir. Əsas məqsəd isə, təbii ki, Azərbaycan vətəndaşının yüksək rifahına və sağlam yaşayışına nail olmaqdır».

**FƏXRİYYƏ**

# Fərdi əmək münasibətlərinin hüquqi müstəvidə həlli

**Fərdi əmək mübahisələrinin predmetinə əmək müqaviləsinin bağlanması, ləğvi və şərtlərinin dəyişdirilməsi, əmək normalarının, işçinin əmək funksiyasının həcminin müəyyən edilməsi, əmək müqaviləsində nəzərdə tutulan iş yerinin, əmək şəraitinin şərtlərinin dəyişdirilməsi, əməkhaqqının və digər ödəmələrin müəyyən edilməsi, hesablanması, ödənilməsi, əməkhaqqından və digər ödəmələrdən tutulmaların aparılması, məzuniyyət hüququnun həyata keçirilməsi, intizam tənbehi və digər məsələlər aiddir.**

İşçi ilə işəgötürən arasında əmək münasibətləri sahəsində yaranmış mübahisələr əksər hallarda tərəflər arasında əmək müqaviləsi olmadığı üçün öz hüquqi həllini tapa bilmir. Fərdi əmək mübahisələrinin hüquqi müstəvidə həll olunması üçün ilk növbədə işçi ilə işəgötürən arasındakı münasibətlər rəsmiləşdirilməlidir. Tərəflər arasında əmək müqaviləsi olarsa, bu halda işçi pozulmuş hüquqlarının məhkəmə yolu ilə bərpasına və ona vurulmuş maddi və mənəvi ziyanın ödənilməsinə nail ola bilər.

Mövzu ilə bağlı müraciət etdiyimiz hüquqşünas Loğman Abdullayev bildirdi ki, fərdi əmək mübahisələrinin hüquqi müstəvidə həll olunması üçün ilk növbədə işçi ilə işəgötürən arasındakı münasibətlər rəsmiləşdirilməlidir: «İşçi ilə işəgötürən arasında əmək münasibətləri sahəsində yaranmış mübahisələr əksər hallarda tərəflər arasında əmək müqaviləsi olmadığı üçün öz hüquqi həllini tapa bilmir. Tərəflər arasında əmək müqaviləsi olduğu halda, işçi pozulmuş hüquqlarının məhkəmə yolu ilə bərpasına və ona vurulmuş maddi və mənəvi ziyanın ödənilməsinə nail ola bilər. Fərdi əmək mübahisələrinin bir tərəfi işəgötürən, digər tərəfi isə öz əmək hüquqlarının və ya qanunla qorunan mənafelərinin pozulduğunu iddia edən işçi və ya qanunvericiliklə müəyyən edilmiş qaydada onun müvəkkil etdiyi şəxsdir».

Hüquqşünasın sözlərinə görə, bir qayda olaraq, bütün fərdi əmək mübahisələrinə bilavasitə məhkəmələr tərəfindən baxılır. İstisna kimi kollektiv müqavilələrdə nəzərdə tutulmuş hallarda müəssisələrdə həmkarlar ittifaqları təşkilatının nəzdində fərdi əmək mübahisələrinə məhkəməyə qədər baxan orqanın yaradılması nəzərdə tutula bilər. Bu orqanın çıxardığı qərar işçini və ya işəgötürəni qane etməzsə, həmin mübahisənin həlli üçün məhkəməyə müraciət etmək olar: «Bu halda, işçi öz hüququnun pozulduğunu aşkar etdiyi gündən etibarən 3 təqvim ayı ərzində müraciət edə bilər. Qalan hallarda fərdi əmək mübahisəsinin həlli üçün işçi, hüququnun pozulduğunu aşkar etdiyi gündən etibarən 1 təqvim ayı ərzində məhkəməyə müraciət edə bilər. Pul və digər əmlak tələbləri ilə əlaqədar, həmçinin ziyan vurulmaqla bağlı yaranmış əmək mübahisələrinin həlli üçün işçi öz hüququnun pozulduğunu aşkar etdiyi gündən etibarən 1 il ərzində məhkəməyə müraciət edə bilər. İşəgötürən isə işçiyə qarşı iddia ərizəsi ilə məhkəməyə hüquqlarının və qanuni mənafelərinin pozulduğu gündən 1 təqvim ayı müddətində, ona maddi ziyan vurulması məsələləri ilə əlaqədar isə ziyanın vurulmasını aşkar etdiyi gündən 1 il müddətində müraciət edə bilər».

L.Abdullayev onu da vurğuladı ki, bu tip mübahisələrə zəruri hallarda, işçinin iş vaxtından kənar vaxtlarda baxılmalıdır. Əmək mübahisəsinin həllinə işçinin iş vaxtı ərzində baxıldıqda həm əsas, həm də əlavə iş yerində onun orta əməkhaqqı saxlanılır: «İşçinin hüquqlarını və qanuni mənafelərini pozmuş işəgötürən fərdi əmək mübahisəsinin həlli nəticəsində məhkəmə tərəfindən müəyyən edilmiş maddi ziyanı tam məbləğdə zərərçəkənə ödəməlidir. İşəgötürən əmək münasibətləri prosesində işçiyə vurduğu mənəvi ziyana görə maddi məsuliyyət daşıyır. Mənəvi ziyan vurulduğunu iddia edən işçi həmin ziyana görə iddiasının məbləğini ərizəsində göstərməlidir. İşçiyə dəyən mənəvi ziyanın pul hesabı ilə məbləği onun ərizəsi əsasında vurulan mənəvi ziyanın ictimai təhlükəlilik dərəcəsinə, işçinin və işəgötürənin şəxsiyyətinə, işin faktiki hallarına və ədalətli qərar qəbul edilməsi üçün zəruri olan digər obyektiv hallara uyğun olaraq məhkəmə tərəfindən müəyyən edilir».

L.Abdullayev qeyd etdi ki, işçiyə vurulmuş mənəvi ziyan dedikdə, işəgötürən və ya onun tabeçiliyində olan vəzifəli şəxs tərəfindən işçinin şərəf və ləyaqətinin ləkələnməsi, alçaldılması, ona böhtan atılması, şəxsiyyətinin təhqir edilməsi, kollektiv arasında gözdən salınması məqsədilə barəsində həqiqətə uyğun olmayan, yalan məlumatlar yayılması, habelə mənəviyyatına, əxlaq normalarına, milli qürur hissinə, etiqadına zidd olan digər əməllər və hərəkətlər başa düşülməlidir: «Məhkəmələr, bir qayda olaraq, əmək mübahisəsini həll edərkən irəli sürülmüş iddia tələbini və işin hallarını araşdıraraq məcburi iş buraxma müddəti üçün əməkhaqqı ödənilməklə işçinin vəzifəsinə bərpa edilməsi barədə qətnamə çıxarırlar. Qətnamədə işçi iddia tələbini irəli sürmüşsə, dəymiş zərərin məbləğinin işəgötürən tərəfindən ödənilməsi də nəzərdə tutula bilər. Zərər dedikdə, işçinin işdən çıxarılması ilə əlaqədar işləmədiyi müddətin orta əməkhaqqı, işə məhkəmədə baxılması ilə əlaqədar hüquqlarının müdafiəsi üçün vəkil tutması ilə əlaqədar çəkdiyi xərclər, mənəvi ziyan və digər xərclərin məcmusu başa düşülməlidir».

**Fərdi əmək mübahisələrinin hüquqi müstəvidə həll olunması üçün ilk növbədə işçi ilə işəgötürən arasındakı münasibətlər rəsmiləşdirilməlidir**

Bəzi hallarda işəgötürən və işçi məhkəmədə mübahisənin həlli prosesində qarşılıqlı razılığa gələrək barışıq sazişi bağlayırlar, belə halda işə baxan hakim tərəflərin barışıq sazişinin təsdiq edilməsi və onların həmin sazişlə müəyyən edilmiş öhdəliklərinin icrasının təmin edilməsi barədə qərar da qəbul edir. Məhkəmənin fərdi əmək mübahisəsinin həlli barədə çıxardığı qərar cavabdeh tərəfindən icra edilmədikdə, yaxud icraya müvafiq vəzifəli şəxs və digər fiziki şəxs tərəfindən mane olunduqda bununla əlaqədar işçiyə dəyən maddi ziyanın ödənilməsi barədə və Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işinin başlanması üçün hakim tərəfindən tədbirlər görülür.

**F. İKRAMQIZI**

# Vergilər Nazirliyinin əməkdaşları Koreyada səfərdə olublar




Koreya Respublikasının Beynəlxalq Əməkdaşlıq Agentliyi (KOICA) tərəfindən Azərbaycan Respublikası Vergilər Nazirliyinin əməkdaşları üçün təşkil edilmiş «Vergi inzibatçılığı təcrübəsi üzrə potensialın gücləndirilməsi - Koreya vergi sisteminin müqayisəli öyrənilməsi» mövzusunda təlim kursunda iştirak etmək üçün ötən ayın 15-dən 31-dək Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi departamentinin Maliyyə institutlarında vergi monitorinqi idarəsinin direktorunun müavini Vüsal Şıxəliyevin rəhbərliyi ilə nazirliyin 25 əməkdaşı adıçəkilən ölkədə səfərdə olmuşdur.

Təlim proqramı çərçivəsində Koreya Respublikasının Milli Vergi Xidmətinin əməkdaşları tərəfindən «Transfer qiymətləri», «Koreyanın ƏDV sistemi», «Elektron faktura sistemi», «Nağd vəsaitin çıxarılması sistemi», «Hometax sistemi», «NTİS sistemi», «Məlumat mübadiləsi», «Xarici şirkətlərin vergi inzibatçılığı», «Fiziki şəxslərin gəlir vergisi», «İnsan resursları sistemi», «Vergi ödəyicisinin müdafiəsi (vəkillik) sistemi» haqqında təqdimatlar nümayiş etdirilmiş, bu mövzular ətrafında Azərbaycan və Koreyanın vergi sisteminin müvafiq sahələri arasında müqayisəli təhlillər aparılmışdır.

Təlim proqramının əsas şərtlərindən biri olan ölkə üzrə arayışa dair Vergilər Nazirliyinin nümayəndə heyəti tərəfindən «Azərbaycan Respublikası haqqında ümumi məlumat», «Azərbaycanın vergi sisteminin tarixi», «Azərbaycanın vergi inzibatçılığı sistemi», «Biznes qeydiyyatı və elektron idarəetmə sahəsində ən son islahatlar», «Mövcud məsələlər və çətinliklər», «Vergi inzibatçılığının bir hissəsi kimi insan resurslarının idarə edilməsi», «Azərbaycanda AEOI alətlərinin tətbiqi» və digər mövzularla bağlı təqdimatlar edilmişdir.

Təlim kursunun sonunda proqramı müvəffəqiyyətlə bitirdiklərinə dair Vergilər Nazirliyinin əməkdaşlarına KOICA və Koreya Milli Vergi Xidmətinin birgə sertifikatı təqdim olunmuşdur.

## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

# Fiziki şəxsin vergi öhdəlikləri

***Fiziki şəxs 3 (üç) il ərzində qeydiyyatda olduğu yaşayış sahəsini təqdim edən zaman hansı vergi öhdəlikləri yaranır?***

Vergi Məcəlləsinin 150.1.9-cu maddəsinə əsasən, torpaq, yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi (fiziki şəxsin azı 5 (beş) il ərzində yaşayış yeri üzrə qeydiyyatda olduğu yaşayış sahələrinin təqdim edilməsi, bu Məcəllənin 102.1.3.2-ci, 102.1.18-ci, 106.1.16-cı, 144.1.1-ci və 144.1.2-ci maddələrində nəzərdə tutulmuş hallarda təqdim edilmə, həmçinin həmin Məcəllənin 221.5-ci maddəsinə uyğun olaraq sadələşdirilmiş vergi hesablanmış tikinti sahələrinin həmin bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxs tərəfindən təqdim edilməsi halları istisna olmaqla) üzrə müqavilələri təsdiq edən notarius ödəmə mənbəyində vergini tutmağa borcludur.

Vergi Məcəlləsinin 218.4.3-cü maddəsinə əsasən, mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsini (fiziki şəxsin azı 5 (beş) il ərzində yaşayış yeri üzrə qeydiyyatda olduğu yaşayış sahələrinin təqdim edilməsi, həmçinin həmin Məcəllənin 102.1.3.2-ci, 102.1.18-ci, 106.1.16-cı, 144.1.1-ci və 144.1.2-ci maddələrində nəzərdə tutulmuş təqdim edilmə halları istisna olmaqla) həyata keçirən şəxslər sadələşdirilmiş verginin ödəyiciləridir.

**Qeyd olunanlara əsasən:**

Fiziki şəxsin yaşayış yeri üzrə 5 (beş) ildən az müddətdə qeydiyyatda olduğu yaşayış sahələrinin təqdim edilməsindən notarius tərəfindən Vergi Məcəlləsi ilə müəyyən edilmiş ümumi qaydada ödəmə mənbəyində sadələşdirilmiş vergi hesablanır və hesablanmış vergi məbləği yaşayış sahəsini təqdim edən şəxsdən tutularaq dövlət büdcəsinə ödənilir. Bununla yanaşı, mənzili satan şəxs 5 il ərzində yaşayış yeri üzrə qeydiyyatda olduğu halda, həmin mənzilin satışı sadələşdirilmiş vergidən azaddır.

Suallarınızı redaksiyamızın ünvanına:
AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz

# Azərbaycan e-xidmətlər üzrə beynəlxalq mövqeyini yaxşılaşdırıb

***Beynəlxalq Telekommunikasiya İttifaqı dünya ölkələri arasında informasiya-kommunikasiya texnologiyalarının (İKT) inkişafı ilə bağlı reytinq hesabatını açıqlayıb. Sənəddə yeni texnologiyalara çıxış, onlardan istifadə, İKT sahəsindəki bacarıqların səviyyəsi, e-xidmətlərin səmərəliliyi və digər sahələrə dair göstəricilər öz əksini tapıb.***

Reytinq siyahısında birinci yeri İslandiya tutub. Sonrakı yerlərə Cənubi Koreya və İsveçrə sahib olub. İlk onluğa isə Danimarka, Böyük Britaniya, Çin, Niderland, Norveç, Lüksemburq və Yaponiya daxildir. Postsovet ölkələrinin hamısı dünya reytinq siyahısının yüzlüyündə yer alıb. MDB ölkələrindən 32-ci yerdə qərarlaşan Belarus liderdir. Azərbaycan isə reytinq cədvəlində 65-ci yerdə qərarlaşıb. Respublikamız İKT-nin bir sıra göstəriciləri üzrə mövqeyini yaxşılaşdırıb və Cənubi Qafqazın lideri, MDB-nin isə ilk 5 yaxşı ölkəsi hesab edilir. Hesabatda dövlət idarəçiliyi sistemində elektron xidmətlərdən istifadə və səmərəlilik indeksi üzrə Azərbaycan yüksək inkişaf etmiş ölkələrlə eyni qrupda yer alıb. «E-hökumət»in tətbiqində İKT-dən istifadə göstəricisi üzrə ilk 40 ölkə arasında qərarlaşan respublikamız Mərkəzi və Şərqi Avropanın liderləri sırasına daxil olub.

Nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini Elmir Vəlizadə KİV-ə açıqlamasında bildirib ki, ölkədə həyata keçirilən «Elektron hökumət» quruculuğu öz mühüm töhfəsini verməkdədir. Son bir ildə dövlət orqanlarının «E-hökumət» portalına inteqrasiyası sürətlənib, elektron sənəd dövriyyəsi genişlənib. «E-imza»nın tətbiqi artıq bütün dövlət qurumlarının elektron xidmətlər göstərməsinə baza və yeni e-xidmətlər üçün əlverişli şərait yaradıb. Nəticədə elektron xidmətlərdən və elektron imzadan istifadə edənlərin sayı nəzərəçarpacaq dərəcədə artıb. Hazırda 40-dan artıq dövlət qurumunun xidmətləri «Elektron hökumət» portalında vətəndaşlara təqdim olunur. Bütün bu amillər Azərbaycanın «E-hökumət»in inkişaf etdiyi ölkələr sırasında mövqeyinin yaxşılaşmasına öz müsbət təsirini göstərməkdədir.

Hazırda İKT ilə bağlı ən mühüm layihələrdən biri genişzolaqlı internet şəbəkəsinin qurulmasıdır. Layihənin əsas hədəfi ən ucqar kənd yerləri də daxil olmaqla ölkənin bütün yaşayış məntəqələrinin yüksək sürətli genişzolaqlı internet xidmətlərinə çıxışının təmin olunmasını başa çatdırmaqdır. «Evlərə optika» modeli adlanan layihə çərçivəsində telekommunikasiya şəbəkəsinin müxtəlif istiqamətlərinə, ucqar yaşayış məntəqələrinə və magistral şəbəkədə ATS-dən 2 km-dən çox məsafədə yerləşən telefon şkaflarına fiber-optik kabel xətlərinin çəkilişi, kommunikasiya və transmissiya qurğularının yeni xidmətlərə uyğun modernləşdirilməsi, telefonlaşdırılmamış yaşayış massivlərinin, çoxmərtəbəli binaların, qismən telefonlaşdırılmış yaşayış məntəqələrinin ən yeni texnologiyalarla təchiz edilməsi nəzərdə tutulur. Layihə başa çatdırıldıqdan sonra respublikamızda internetin sürətində əhəmiyyətli dəyişikliklər baş verəcək. Layihə, həmçinin, Azərbaycanın ümumdünya elektron məkanına daha sürətli inteqrasiyasının təmin edilməsinə, «Elektron hökumət»lə bağlı islahatların miqyasının genişləndirilməsinə, yeni qabaqcıl texnologiyaların tətbiqinə də stimul verəcək.

Azərbaycan İnternet Forumunun prezidenti, «Multimedia» Mərkəzinin rəhbəri Osman Gündüzün sözlərinə görə, son illər dövlət qurumlarında İKT-nin tətbiqinin genişləndirilməsi və elektron xidmətlər göstərməsinin təşkili sahəsində tədbirlərin icrasının təmin edilməsi respublikamızın beynəlxalq hesabatlarda mövqeyinin yaxşılaşmasında mühüm rol oynamaqdadır. Xüsusilə də «ASAN xidmət» layihəsi «E- hökumət» quruculuğu sahəsində həyata keçirilmiş tədbirlərin ən uğurlusu hesab olunur. Hazırda Azərbaycanda elektron təhsil, elektron vergi, elektron səhiyyə, elektron kənd təsərrüfatı, elektron gömrük, elektron ticarət və digər istiqamətlər üzrə səmərəli layihələrin icrası davam etdirilir. Bütün bu xidmətlər «Elektron hökumət» modelində əks olunur.

Vergilər Nazirliyi tərəfindən elektron xidmətlərin tətbiqinin genişləndirilməsi ilə bağlı həyata keçirilən davamlı tədbirlərin əhəmiyyətindən danışan Osman Gündüzün sözlərinə görə, nazirlik hazırda İKT xidmətlərindən istifadə edən aparıcı dövlət qurumu sayılır. Nazirlik həm elektron xidmət göstərilməsinə hazırlıq vəziyyətinə, həm də elektron xidmətlərin keyfiyyətinə görə mühüm üstünlüyə və yaxşı təcrübəyə malikdir. Vergilər Nazirliyi uzun müddətdir ki, bütün xidmətləri interaktiv formada internet üzərindən həyata keçirir və sosial şəbəkələrə inteqrasiyanı genişləndirməklə çevik dövlət orqanı olduğunu təsdiq edib, bu istiqamətdə digər dövlət qurumları üçün nümunə ola biləcək sistem yaradıb. Bu gün vergi orqanları tərəfindən 65 e-xidmətin göstərilməsi həm vətəndaşlarla operativ əlaqələrin yaradılmasına, həm də vergi xidməti strukturları arasında informasiya mübadiləsini, məlumatların işlənməsini, bəyannamələrin qəbulunu və qeydiyyatını sürətləndirməyə və avtomatlaşdırmağa, sənədlərin sistemdaxili dövriyyəsini tam şəkildə elektron varianta keçirməyə imkan verir.

> Vergilər Nazirliyi uzun müddətdir ki, bütün xidmətləri interaktiv formada internet üzərindən həyata keçirir və sosial şəbəkələrə inteqrasiyanı genişləndirməklə çevik dövlət orqanı olduğunu təsdiq edib

**ELBRUS**

## VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

İşə qəbul olunarkən işəgötürənlərdən əmək müqaviləsinin bağlanmasını tələb edin. Əmək müqaviləsi ilk növbədə sosial maraqlarınızın təmin olunmasına xidmət edir və rəsmiləşdirilməmiş əmək fəaliyyətinə razılaşmaqla Siz gələcəkdə dövlətin sosial təminatından və bir sıra üstünlüklərdən məhrum olursunuz.

| İşçinin hüquqları və üstünlükləri | Əmək müqaviləsi ilə fəaliyyət göstərdikdə | Əmək müqaviləsiz fəaliyyət göstərdikdə |
|---|---|---|
| 8 saatlıq iş hüququ | ✓ | ✗ |
| Əmək məzuniyyətindən istifadə hüququ | ✓ | ✗ |
| Peşə-əmək qabiliyyətinin itirilməsi hallarında icbari sığorta hüququ | ✓ | ✗ |
| Xəstəlik və işdənçıxma müavinətinin tam həcmdə alınması hüququ | ✓ | ✗ |
| Gələcəkdə layiqli əmək pensiyasının alınması imkanı | ✓ | ✗ |
| İpoteka və digər kreditləri almaq imkanı | ✓ | ✗ |
| Məhkəmədə hüquqların müdafiəsi | ✓ | ✗ |

İşəgötürənlə əmək müqaviləsi bağlamaqla və rəsmi əməkhaqqı ödəməyi tələb etməklə Siz gələcəyinizi indidən düşünmüş olursuz. Unutmayın ki, Sizə ödənilən rəsmi əmək haqları - sabah üçün sabit sosial təminatınızın təməlidir!

**Bununla bağlı hüquqlarınız pozularsa, vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya «195-1» Çağrı Mərkəzinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Uçot dərəcələrinin sabitliyi qeyri-neft istehsalına stimul verir

Azərbaycan Mərkəzi Bankının (MB) İdarə Heyətinin qərarı ilə uçot dərəcəsi 15%, faiz dəhlizinin həddi isə 10%, səviyyəsində müəyyən edilib. Bankın yaydığı bəyanata əsasən, qeyri-neft iqtisadiyyatının artımında pozitiv dinamikanın müşahidə edilməsi və bunun fonunda makroiqtisadi sabitliyin davamlılığı valyuta bazarında da stabilliyin qorunub saxlanmasına öz töhfəsini verməkdədir.

Hazırda ölkənin bank sistemində hökm sürən monetar şərait iqtisadiyyatın pula olan tələbatının, o cümlədən fiskal sektorun likvidliyə olan ehtiyacının tam ödənilməsinə imkan verir. Bank sektorunda likvidlik təmin edilib, bankların kredit portfeli cari ilin əvvəlindən 26,1% azalıb. 2017-ci ilin 10 ayında pul siyasətinin əsas əməliyyat hədəfi olan manatla pul bazası 8,5% artıb. Bu proseslərin nəticəsində faiz dəhlizinin parametrlərinə dair mövcud qərar qəbul edilib.

İqtisadçı Oqtay Məmmədovun fikrincə, uçot dərəcəsi ölkədəki cari iqtisadi vəziyyət və tədiyyə balansının, həmçinin inflyasiyanın səviyyəsi nəzərə alınmaqla təyin edilir. Ötən iki ildə Azərbaycanda iqtisadi artımın aşağı düşməyə meyilli olduğunu nəzərə alan Mərkəzi Bank 2016-cı ildə uçot dərəcəsinin artırılması istiqamətində siyasət yürüdürdü. Həmin vaxt neftin ucuzlaşması, idxalın artması və digər xarici təsirlər nəticəsində milli valyutaya təzyiq yüksəldiyi üçün hökumət uçot dərəcələrini artırmaqla manatın məzənnəsini sabit saxlamağa qərar verirdi. Pul kütləsinin hədəflənməsi şəraitində ötən dövrdə çevik monetar siyasət həyata keçirilirdi. Qəbul edilmiş pul proqramı çərçivəsində üzən məzənnə rejiminə keçidlə əlaqədar gözləntiləri nəzərə almaqla, MB pul bazasını məhdudlaşdırırdı. Həmin dövrdə maliyyə bazarlarında pulun dəyəri başlıca olaraq Mərkəzi Bankın faiz dəhlizi çərçivəsində formalaşıb. 2017-ci ilin əvvəllərindən isə fərqli siyasət yürüdülür, çünki əvvəlki təhlükə azalıb və manatın xarici valyutalarla nisbətdə bahalaşması müşahidə edilir. Buna görə də MB manatın məzənnəsinin sabitləşməsindən sonra pul kütləsinin həcmini bərpa edib.

2017-ci ilin ilk rübündən makroiqtisadi göstəricilərin yaxşılaşması hökumətin maliyyə-fiskal siyasətində dəyişikliklərə imkan verib. Cari il iyun ayının 22-də Mərkəzi Bankın uçot dərəcəsi və faiz dəhlizinin həddi ilə bağlı qəbul etdiyi qərarla uçot dərəcəsi sabit saxlanılsa da, faiz dərəcələri 12%-dən 10%-ə endirilmişdi. Bu qərar ikinci və üçüncü rüblərdə qeyri-neft sektorunda iqtisadi artımın davamlılığına müsbət təsir edib və maliyyə sabitliyinin təmin olunmasını möhkəmləndirib. 2017-ci ilin 9 ayında qeyri-neft sektorunda 2,5%-lik iqtisadi artım baş verib. Ticarət sektorunda iqtisadi artım daha çox qeydə alınıb (3%), həmçinin qeyri-neft sənayesində 3,1%, kənd təsərrüfatında 2,8%, turizmdə 3,2%, rabitə və informasiya sahəsində 6,2% artım müşahidə edilib. Dövlətin investisiya tələbi, eyni zamanda ölkədə qeyri-neft məhsul və xidmət ixracının genişlənməsi ilə yanaşı, istehlakçı inamının tədricən bərpası iqtisadi artıma müsbət təsir göstərib.

O.Məmmədovun sözlərinə görə, ixracın şaxələndirilməsi ilə bağlı son bir ildə yürüdülən uğurlu siyasət ixrac potensialının artmasına, Azərbaycanın xarici sektor göstəricilərinin yaxşılaşmasına səbəb olub. Cari ilin ötən 10 ayında xarici ticarət balansının profisiti təxminən 2,2 milyard dollar təşkil edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 0,5 milyard dollar çoxdur. Xarici balansın tarazlaşması isə valyuta bazarında sabitliyin davamlı xarakter almasına şərait yaradıb və manatın məzənnəsi ABŞ dollarına nəzərən ilin əvvəlindən 4% möhkəmlənib. Bütün bu amillər, xüsusilə ölkədə maliyyə sabitliyinin möhkəmlənnəsi və bankların likvidliyinin artması kredit dərəcələrinin aşağı salınmasına zəmin yaradır. Banklar isə bu vəziyyətdən səmərəli istifadə edərək iqtisadiyyatın qeyri-neft sahələrinə investisiyaları artırmalı, sahibkarlığa sərfəli şərtlərlə maliyyə vəsaitlərinin verilməsini gücləndirməlidirlər. Sahibkarlar üçün kredit əldə etmək imkanlarının artması isə onlara öz layihələrini genişləndirməyə və investisiya cəlbediliyinin yüksəlməsi sayəsində bölgələrdə qeyri-neft istehsalını stimullaşdırmağa imkan yaradır.

> **Xarici balansın tarazlaşması valyuta bazarında sabitliyin davamlı xarakter almasına şərait yaradıb və manatın məzənnəsi ABŞ dollarına nəzərən ilin əvvəlindən 4% möhkəmlənib**

**E.CƏFƏRLİ**

# Mülki Məcəlləyə əlavə və dəyişikliklər ediləcək

## *Mənzil alğı-satqısında mövcud olan bir sıra çatışmazlıqlar aradan qalxacaq*

Noyabrın 20-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin növbəti iclasında «Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında» qanun layihəsi müzakirəyə çıxarılıb. Qanunvericilik təşəbbüsü qaydasında ölkə Prezidenti tərəfindən parlamentə təqdim olunan qanun layihəsində Mülki Məcəllənin bir sıra maddələrində düzəlişlər edilməsi təklif olunur. Bu düzəlişlər ölkədə tikinti sektorunda olan bəzi mübahisəli məqamların aradan qaldırılmasına yönəldilib.

Qanun layihəsinin müzakirəsi zamanı deputatların nəzərinə çatdırılıb ki, hazırda inşası başa çatmayan binalarda mənzillərin alğı-satqısı, vətəndaşların mülkiyyət hüquqlarının qeydiyyatı ilə bağlı prosedurlar, mənzillərin eyni zamanda bir neçə şəxsə satılması kimi çatışmazlıqlar mövcuddur. Həmin çatışmazlıqların aradan qaldırılması üçün ilk növbədə mülkiyyətçi ilə mənzil alan arasında müqavilə notariat qaydasında bağlanmalıdır. Bu qayda dünya təcrübəsində də tətbiq olunur və milli qanunvericilikdə də öz əksini tapması zəruri hesab edilir.

Qeyd olunub ki, təqdim edilən qanun layihəsi daşınmaz əmlaka sərəncam verilməsi və dövlət reyestrinin aparılması sahəsində fəaliyyətin təkmilləşdirilməsi, tikintisi başa çatmayan binalarda mənzillərin alğı-satqısı prosesinin tənzimlənməsi işlərini asanlaşdıracaq. Nəzərə çatdırılıb ki, tikintisi başa çatmayan çoxmənzilli binalarda da mənzillərə sərəncam verilməsi haqqında müqavilələr notariat qaydasında təsdiqlənməklə yanaşı, daşınmaz əmlakın dövlət reyestrində təminat qeydi aparılmalıdır. Təminat qeydinin aparılmasının xüsusiyyətləri Mülki Məcəllənin 147-ci maddəsi ilə müəyyən olunur. Burada nəzərdə tutulan «qabaqcadan qeydiyyat» institutu təkmilləşdirilərək «torpaq sahəsi barədə təminat qeydi» institutu olaraq formalaşdırılıb. Mənzillərin satışı zamanı mülkiyyətçi torpaq sahəsi barədə alıcının xeyrinə təminat qeydini notarius və daşınmaz əmlakın dövlət reyestri vasitəsilə aparacaq. Bu prosedur şəffaf şəkildə, elektron qaydada, mülkiyyətçinin reyestrə birbaşa müraciəti olmadan həyata keçirilir. Qanun layihəsinin üstünlüklərindən biri də tikintisi başa çatmayan binadan mənzil alan alıcının üzərinə mənzilin alış qiymətini tikinti başa çatmazdan əvvəl tam şəkildə ödəmək öhdəliyinin qoyula bilməməsi ilə bağlıdır. Bu zaman ödəmələr tikintinin mərhələləri üzrə hissələrlə həyata keçirilməlidir.

> **Tikintisi başa çatmayan çoxmənzilli binalarda da mənzillərə sərəncam verilməsi haqqında müqavilələr notariat qaydasında təsdiqlənməklə yanaşı, daşınmaz əmlakın dövlət reyestrində təminat qeydi aparılmalıdır**

Deputatlar qanun layihəsinin aktuallığından danışarkən nəzərdə tutulan dəyişikliklərin vətəndaşların mülkiyyət hüququnun qorunması baxımından məqsədəmüvafiq olduğunu söyləyib və bir sıra təkliflər veriblər. İclasın sonunda qanun layihəsinin işçi qaydada bir daha nəzərdən keçirilməsi və Milli Məclisin plenar iclasına tövsiyə olunması qərara alınıb.

**Rəşad SADIQOV**

# «Asan imza» istifadəçi İD-sini necə dəyişdirməli...

## *Bu ilin noyabr ayının 1-nə vergi ödəyicilərinə ümumilikdə 384.246 «Asan imza» sertifikatı verilib*

***2013- cü ilin may ayından etibarən istifadəyə verilən «Asan imza» ölkəmizdə mövcud qanunvericiliyin bütün tələblərinə uyğun gələn yeganə mobil elektron imza hesab edilir. Bu imza vasitəsilə hazırda elektron vergi bəyannamələrinin təqdim olunması, gömrük xidmətində məhsulların və nəqliyyat vasitələrinin bəyan edilməsi, əmək müqavilələri haqqında bildirişlərin qeydiyyatı və s. həyata keçirilir.***

Bu ilin əvvəlindən Vergilər Nazirliyi tərəfindən «Asan imza istifadəçi İD-sinin dəyişdirilməsi» elektron xidməti istifadəyə verilib. Xidmətin icrası istifadəçinin «Asan imza» vasitəsilə əməliyyatları təsdiqləməsindən və əməliyyatların informasiya sistemi tərəfindən emalı müddətindən asılı olaraq, 3 - 5 dəqiqə ərzində həyata keçirilir. İstifadəçi tərəfindən təsdiqlənmiş İD-nin dəyişdirilməsi barədə məlumat internet və ya Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi (AVİS) vasitəsilə Asan Sertifikat Xidməti Mərkəzinin (ASXM) məlumat bazasına göndərilir.

«Asan imza» istifadəçi İD-sinin dəyişdirilməsi üçün istifadəçi asanimza.az internet səhifəsindən yüklənmiş AsanDoc proqram təminatında istifadəçi İD-sinin dəyişdirilməsi üçün mövcud istifadəçi İD-sini və yeni istifadəçi İD-sini müvafiq xanalara qeyd etməli və mobil telefonda PİN1 daxil etməklə əməliyyatı təsdiqləməlidir. Əməliyyatın sonunda istifadəçi İD-sinin müvəffəqiyyətlə dəyişdirilməsi barədə məlumat ekranda əks olunacaq. İstifadəçi Çağrı Mərkəzinə müraciət etməklə xidmətdən istifadə etdikdə istifadəçi ASXM tərəfindən təqdim edilmiş istifadəçi İD-sini dəyişdirmək istədiyini bildirməli, daha sonra ondan soruşulan «Asan imza»nın bağlı olduğu




mobil telefon nömrəsini və yeni istifadəçi İD-si məlumatını bildirməlidir. Bundan sonra istifadəçiyə mövcud və yeni təqdim olunan istifadəçi İD-si barədə SMS göndəriləcək. İstifadəçi SMS-lə tanış olduqdan sonra Çağrı Mərkəzinin təmsilçisinə razılığını bildirməli, mobil telefonda yoxlama kodunu təsdiqləməli və «Asan imza» PİN 2 kodunu daxil etməklə imzalamalıdır. Əməliyyat başa çatdıqdan sonra istifadəçinin «Asan imza»nın bağlı olduğu mobil telefon nömrəsinə İD-nin dəyişdirilməsi barədə SMS göndəriləcək. Həmçinin istifadəçinin İnternet Vergi İdarəsində elektron qutusu olduğu halda, «Onlayn kargüzarlıq» səhifəsinə əməliyyat tarixçəsi barədə məlumat göndəriləcək. İstifadəçi İD-sinin dəyişdirilməsi əməliyyatı istifadəçi tərəfindən təsdiqləndiyi andan sistemdə dəyişiklik aparılacaq.

«Asan imza»nın bağlı olduğu mobil telefon nömrəsi səhv bildirilərsə, mobil nömrədə «Asan imza» xidməti aktiv olmazsa, istifadəçinin «Asan imza» sahibi olmadığı müəyyən edilərsə, yeni istifadəçi İD-si dəqiq bildirilməzsə, xidmət yekunlaşdırılmadan əlaqə kəsilərsə bu zaman istifadəçi İD-sinin dəyişdirilməsindən imtina ediləcək. İstifadəçi Çağrı

***Əməliyyat başa çatdıqdan sonra istifadəçinin «Asan imza»nın bağlı olduğu mobil telefon nömrəsinə İD-nin dəyişdirilməsi barədə SMS göndəriləcək***

Mərkəzinə müraciət etdikdə və sorğunun qəbulundan imtina üçün əsas olmadıqda yeni istifadəçi İD-si Çağrı Mərkəzinin təmsilçisi tərəfindən qəbul olunacaq.

Qeyd edək ki, xidmətin göstərilməsi üçün heç bir ödəniş və ya sənəd tələb olunmur, sadəcə, istifadəçi «Asan imza»ya malik olmalıdır.

**AYTƏN**

# Daşınmaz əmlakın qeydiyyatı ilə bağlı islahatlar davam etdirilir

***Əmlak Məsələləri Dövlət Komitəsi (ƏMDK) tərəfindən daşınmaz əmlakın qeydiyyatı prosesində əlçatanlığın təmin olunması, qeydiyyatla bağlı prosedurların sadələşdirilməsi və müasirləşdirilməsi bu sahədə göstəriciləri xeyli yaxşılaşdırıb: qeydiyyat ötən ilin yanvar-oktyabr ayları ilə müqayisədə cari ilin müvafiq dövründə 15%-ə yaxın artıb.***

Komitə tərəfindən əmlakın qeydiyyatı kalkulyatorunun istifadəyə verilməsi, qeydiyyatın qabaqcadan tətbiqi, SMS xidmətlərinin fəaliyyət göstərməsi, bununla bağlı maarifləndirmə işlərinin aparılması nəticənin müsbət olmasına təsir göstərib. Statistik məlumatlara əsasən, 2017-ci ilin yanvar-oktyabr ayları ərzində daşınmaz əmlak üzərində mülkiyyət hüquqlarının dövlət qeydiyyatı 161.442 olmuşdur. Bu isə ötən ilin eyni dövrü ilə müqayisədə 14.4% artım deməkdir. Bu göstəricinin 48.083-ü (29,8%) ilkin, 113.359-u (70,2%) isə təkrar qeydiyyata aid olmuşdur. Mülkiyyət hüquqlarının qeydiyyatı aparılan əmlaklardan 31.156-sı fərdi yaşayış və bağ evi, 41.889-u mənzil, 81.652-si torpaq sahəsi, 2980-i qeyri-yaşayış binası, 2869-u qeyri-yaşayış sahəsi, 628-i əmlak kompleksi, 118-i çoxmərtəbəli yaşayış binası, 150-si isə çoxillik əkmələr olmuşdur.

ƏMDK-nın İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Qulu Xəlilovun sözlərinə görə, ilkin qeydiyyatın 37,1%-i Bakı şəhərinin, 62,9%-i isə regionların payına düşür. İlkin qeydiyyat ötən ilin eyni dövrü ilə müqayisədə 19.3% faiz artmışdır: «Bundan başqa, 2017-ci ilin yanvar-oktyabr ayları ərzində ölkə üzrə 11.275 mənzil özəlləşdirilib. Ötən ilin eyni dövrü ilə müqayisədə özəlləşdirilmiş mənzillərin sayı 30,7%-ə yaxın artıb. Ümumilikdə isə özəlləşdirmə başlayandan bu günədək ölkə üzrə 539.000-dən çox mənzil özəlləşdirilib. İlkin qeydiyyatın artması bu sahədə yaradılan rahat şəraitin, operativliyin nəticəsidir. Eyni zamanda əldə olunan yüksək göstərici vətəndaşların daşınmaz əmlak bazarında leqal əmlaklara üstünlük verməsinin bariz nümunəsidir. Təkrar qeydiyyatda əldə olunan yüksək göstərici ölkədə iqtisadi və hüquqi əməliyyatların artması deməkdir. Təkrar qeydiyyatın artması daşınmaz əmlak bazarının canlanmasına, inkişafına imkan verir».

Q.Xəlilov bildirib ki, 2017-ci ilin yanvar-oktyabr ayları ərzində daşınmaz əmlakın texniki inventarlaşdırılması və texniki pasport tərtib edilməsi ötən ilin eyni dövrü ilə müqayisədə 17,9% artaraq 117,9% təşkil edib: «Cari ilin 10 ayı ərzində hüquqi və fiziki şəxslərə 127.226 məhdudiyyət arayışı verilib. Məhdudlaşdırmaya (yüklülüyə) dair dövlət reyestrindən arayışların verilməsi sahəsində də ötən ilin eyni dövrünün statistikası ilə müqayisədə 20,9% artım olduğunu göstərir. Cari ildə 31.049 ipoteka müqaviləsi bağlanıb ki, bunlardan 5778-i torpaq sahəsi, 14516-sı mənzil, 7313-ü fərdi yaşayış və bağ evləri, 3442-si isə digər sahələrə aiddir. Oktyabr ayının sonunadək 2804 yüklülük (icarə, istifadə) dövlət qeydiyyatına alınıb».

Q.Xəlilovun sözlərinə görə, bu il «Çoxmərtəbəli yaşayış binasında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış almış mənzillərin mövcudluğu barədə məlumatların verilməsi» və «Mənzillərin alğı-satqı müqavilələri üzrə satış qiymətləri barədə məlumatların verilməsi» elektron xidmətləri istifadəyə verilib. Bundan başqa, «Əmlakın qeydiyyatı kalkulyatoru», «Elektron çıxarış sistemi» də vətəndaşlara xidmət göstərir: «Daşınmaz əmlakın qeydiyyatı sahəsində sosial layihələrdən biri də «Kütləvi çıxarış» kampaniyasıdır. Hazırda kampaniyanın əhatə dairəsi daha da genişlənərək, birbaşa ünvanlarla yanaşı, iş yerlərində, o cümlədən vətəndaşların kənd təsərrüfatı ilə məşğul olduğu sahələrdə, əkin yerlərində, ucqar kənd yerlərində də aparılır. İndiyədək keçirilmiş 18 kampaniyanın 4-ü paytaxt rayonlarında, 14-ü isə respublikanın müxtəlif şəhər və rayonlarında baş tutub».

Komitə rəsmisinin sözlərinə görə, daşınmaz əmlakın qeydiyyatı ilə bağlı fəaliyyət göstərən mobil ofislər vasitəsilə yanvar-oktyabr ayları ərzində vətəndaşlardan 61.243 müraciət qəbul olunub. Bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 7,4% faiz artıb.

**Fəxriyyə İKRAMQIZI**

# İşsizliyə görə sığorta ödənişləri 33 mln. 478 min manat həcmində proqnozlaşdırılır

Gələn ilin əvvəlindən tətbiq olunması gözlənilən «İşsizlikdən sığorta haqqında» Qanun bu sahədə təşkilati-hüquqi və iqtisadi əsasları müəyyən edir, işsizlikdən sığortanın subyektləri arasındakı münasibətləri tənzimləyir.

Qanunun məqsədi Azərbaycanın əmək bazarında riskin ötürülməsinə əsaslanan münasibətlərin və yeni maliyyələşmə mexanizmlərinin yaradılması, sığortaolunanların itirilmiş əməkhaqlarının kompensasiya edilməsi və işsizliyin yaranması hallarının qarşısının alınması üçün qabaqlayıcı tədbirlərin görülməsi yolu ilə əhalinin sosial müdafiəsinin gücləndirilməsinə təminat verməkdir.

Əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov qanun layihəsi barədə məlumat verərkən bildirib ki, işsizlikdən sığorta fondunun 2018-ci il büdcəsinin gəlirləri və xərcləri 89 mln. 40 min manat məbləğində proqnozlaşdırılıb. Gələn il fondun gəlirləri büdcədən maliyyələşən təşkilatlar üzrə 17 mln. 726 min 212 manat, büdcədən maliyyələşən təşkilatlarda işləyənlər üzrə 17 mln. 726 min 212 manat, digər sığortaedənlər üçün 53 mln. 567 min 576 manat və sair gəlirlərdən 20 min manatlıq daxilolmalar hesabına təmin ediləcək. Fondun xərclərinin istiqamətləri barədə də məlumat verən nazir qeyd edib ki, 2018-ci ildə fond tərəfindən işsizliyə görə sığorta ödənişləri 33 mln. 478 min manat, peşə hazırlığı və əlavə təhsilin təşkilinə 1 mln. 613 min manat, peşə yönümünə dair məsləhət xidmətlərinin göstərilməsinə 1 mln. 150 min manat, əmək yarmarkaları və əmək birjalarının təşkilinə 120 min manat, haqqı ödənilən ictimai işlərin təşkilinə 1 mln. 788 min manat, özünüməşğulluq tədbirlərinin təşkilinə 35 mln. 802 min manat, sığortaolunanların əmək haqqının müəyyən hissəsinin müəyyən müddətə (3 ay, 6 ay, 9 ay, 1 il) sığortaedənlərlə birlikdə maliyyələşdirilməsinə 1 mln. 380 min manat, məşğulluq xidməti orqanının aparatının və onun yerli orqanlarının saxlanılması xərclərinə 13 mln. 709 min manatın yönəldilməsi nəzərdə tutulur.

Nazir onu da əlavə edib ki, müvafiq icra hakimiyyəti orqanı sığorta haqları üzrə hər ay üçün toplanmış vəsaitləri növbəti ayın 1-dək işsizlikdən sığorta fonduna köçürəcək. İlin sonuna işsizlikdən sığorta fondunun istifadə olunmamış vəsaitləri növbəti ilin xərclərinin maliyyələşdirilməsinə yönəldiləcək.

**A.NƏBİYEVA**

## BİR CÜMLƏ - BİR XƏBƏR

«Sərhədkeçmə prosedurlarının sadələşdirilməsi və turistlər üçün viza verilməsi prosedurlarının asanlaşdırılması üzrə» İşçi qrupun növbəti iclasında bu sahədə işlərin daha da təkmilləşdirilməsi yolları araşdırılıb.

Dekabrın 11-12-də Omanın paytaxtı Məsqət şəhərində keçiriləcək II Dünya Turizm və Mədəniyyət Konfransında Azərbaycan da təmsil olunacaq.

Bakı şəhəri Qaradağ Rayon İcra Hakimiyyəti ilə Çin Xalq Respublikasının Şenjen şəhər Regional İqtisadi Əməkdaşlıq Assosiasiyası arasında Ələt qəsəbəsində «Azərbaycan-Çin Azad İqtisadi Sənaye Şəhərciyi»nin yaradılması sahəsində əməkdaşlıq haqqında Saziş imzalanıb.

Azərbaycan noyabrın 30-da Avstriyanın paytaxtı Vyanada keçiriləcək Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) Nazirlər Şurasının 173-cü iclasına dəvət olunub.

Belarusda fəaliyyət göstərən «Azərbaycan Ticarət Evi»nin nümayəndələri ilə ixracatçılar arasında Bakıda keçirilən görüşdə Azərbaycan məhsullarının Belarus bazarında təşviqi və ixracın genişləndirilməsi ilə bağlı müzakirələr aparılıb.

Noyabrın 23-24-də Bakıda keçiriləcək «Bank sisteminin yeni inkişaf dövrünə adaptasiyası» adlı II Bankçılıq Forumunda maliyyə-bank sisteminin yeni inkişaf dövrünə adaptasiyası, nağdsız ödənişlərin həcminin artırılması istiqamətləri və digər bu qəbildən olan məsələlər müzakirə olunacaq.

# İŞƏGÖTÜRƏNLƏRİN NƏZƏRİNƏ!

İşəgötürən ona məxsus iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxslə ilkin olaraq fərdi qaydada yazılı əmək müqaviləsi (kontrakt) bağlamalı, bundan sonra əmək müqaviləsinin məlumatlarını Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sisteminə daxil edərək onun hüquqi qüvvəyə minməsi üçün müvafiq bildiriş əldə etməlidir.

Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi üçün işəgötürənin və ya onun səlahiyyət verdiyi şəxsin gücləndirilmiş elektron imzası, o cümlədən «ASAN imza»sı olmalıdır. «ASAN imza» SİM kartını mobil operatorların («Azercell», «Bakcell», «Nar Mobile») nümayəndəliklərindən əldə edib, vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etməklə «ASAN imza» sertifikatı ala bilərsiniz.

İşəgötürən tərəfindən əmək müqaviləsi hüquqi qüvvəyə minmədən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb olunması qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur:

| Qanun pozuntuları | Məsuliyyət tədbirləri |
|---|---|
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürənlər tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə (Vergi Məcəlləsi, maddə 58.10) | hər bir belə işçi üzrə **1000 manat** məbləğində maliyyə sanksiyası tətbiq edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxsləri hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (İnzibati Xətalar Məcəlləsi, maddə 192.1) | fiziki şəxslər **1000 manatdan 2000 manatadək** miqdarda, vəzifəli şəxslər **3000 manatdan 5000 manatadək** miqdarda, hüquqi şəxslər **20.000 manatdan 25.000 manatadək** miqdarda inzibati cərimə edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda (yəni 10 nəfər və ondan çox olan) işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (Cinayət Məcəlləsi, maddə 162-1.1)<br><br>Eyni əməllər təkrar törədildikdə (Cinayət Məcəlləsi, maddə 162-1.2) | **7000 manatdan 10.000 manatadək** miqdarda cərimə və ya **3 ilədək** müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.<br><br>**3 ildən 7 ilədək** müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır |

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Əlavə məlumatı www.taxes.gov.az və www.e-gov.az saytlarından, vergi ödəyicilərinə xidmət mərkəzlərindən və «195-1»Çağrı Mərkəzindən əldə edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## ELAN

Cari ilin sentyabr ayından dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın yeni tarifinin tətbiqinə başlanılmışdır.

Dövlət müəssisələrinin büdcədən maliyyələşdirilməsi proseduru və alışların əvvəlcədən planlaşdırılması nəzərə alınaraq, dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın əldə edilməsi və istismarı prosesini asanlaşdırmaq məqsədilə yeni tarif müəyyən olunmuşdur. Tarif «Asan İmza» dövlət və ya bələdiyyə sertifikatının istifadəsi müddətində (3 il ərzində) başqa əlavə xərclər olmadan 58 manat həcmində birdəfəlik ödənişi nəzərdə tutur.

«ASAN İmza» ilə əlaqədar əlavə sualınız yaranarsa, **Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə**, www.taxes.gov.az və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

VERGİLƏR NAZİRLİYİ

# Qiymətli kağızlar bazarında əməliyyatların həcmi artıb

*Maliyyə Bazarlarına Nəzarət Palatası qiymətli kağızlar bazarının rüblük göstəricilərini açıqlayıb*

Palatanın məlumatına görə, 2017-ci ilin yanvar-sentyabr ayları ərzində qiymətli kağızlar bazarı 9,2 mlrd. manat təşkil edib, əməliyyatların sayında, habelə ayrı-ayrı bazar seqmentlərində ötən ilin müvafiq dövrü ilə müqayisədə artım müşahidə edilib. 2017-ci ilin 9 ayı ərzində korporativ qiymətli kağızların təkrar bazarı 3 dəfə artaraq 1,1 mlrd. manatı ötüb, dövlət qiymətli kağızlar bazarı 8 dəfə artaraq 3 mlrd. manat, törəmə maliyyə alətləri bazarı isə 15% artaraq 3,7 mlrd. manat olub.




### Korporativ qiymətli kağızlar

Hesabat dövrü ərzində real sektor təmsilçilərinin və maliyyə institutlarının fond bazarı vasitəsilə öz kapitallarını artırmaq təşəbbüsləri korporativ qiymətli kağızlar bazarının səhm seqmentində əməliyyatların həcminin 58% (və ya 404 mln. manat) artaraq 1,1 mlrd. manat təşkil etməsinə səbəb olub. Ümumilikdə, səhmlərin ilkin bazarında bağlanan əqdlərin məbləği ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,6 dəfə artaraq 1 mlrd. manatı üstələyib.

Hesabat dövründə korporativ istiqrazlarla bağlanmış əqdlərin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 82% azalaraq 1,3 mlrd. manat olub. Digər tərəfdən, hesabat dövründə xarici valyutada yerləşdirilmiş korporativ istiqrazların həcmi 5 dəfə artaraq 109,4 mln. manata çatıb. Eyni zamanda, korporativ istiqrazların həm milli, həm də xarici valyutada təkrar bazarında əhəmiyyətli artım müşahidə olunub. Belə ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə manatla təkrar bazarın həcmi 14,6 dəfə artaraq 753 mln. manat, xarici valyutada isə 22 dəfə artaraq 284 mln. manat təşkil edib.







### Dövlət qiymətli kağızları

Dövr ərzində Mərkəzi Bank tərəfindən milli valyutaya olan təzyiqlərin azaldılması məqsədilə manat kütləsinin sterilizasiyası not buraxılışı vasitəsilə həyata keçirilib. Məhz not buraxılışı dövlət qiymətli kağızları bazarında əməliyyatların həcminin artım dinamikasını müəyyən edib. Cari ilin 9 ayında dövlət qiymətli kağızları bazarında əqdlərin həcmi ötən illə müqayisədə 8 dəfə artaraq 3 mlrd. manatı üstələyib, bunun da 83%-ni (2,5 mlrd. manat) Mərkəzi Bankın notları ilə ilkin bazarda bağlanan əqdlər təşkil edib. Mərkəzi Bankın notları nəzərə alınmadan da dövlət qiymətli kağızlar bazarında müsbət dinamika müşahidə olnunub. Bu seqment ötən ilin müvafiq dövrü ilə müqayisədə 33% və ya 126,3 mln. manat artıb. Notların ilkin bazarında bağlanmış əqdlər üzrə orta çəkili gəlirlilik 10,91% təşkil edib.

Hesabat dövründə qısa və ortamüddətli dövlət istiqrazları ilə 506,4 mln. manat məbləğində əqd bağlanıb. Qısamüddətli dövlət istiqrazlarının ilkin bazarında (472,7 mln. manat) bağlanmış əqdlər üzrə orta çəkili gəlirlilik 13,67% olub. Dövlət istiqrazları ilə təkrar bazar əqdlərinin məbləği 33,7 mln. manat təşkil edib.

### Törəmə maliyyə alətləri bazarı

Hesabat dövrü ərzində Bakı Fond Birjasının törəmə maliyyə alətləri platformasında ümumi məbləği 3,4 mlrd. manat olan valyuta əsaslı və ümumi dəyəri 307,4 mln. manat olan əmtəə əsaslı törəmə maliyyə alətləri ilə ticarət əməliyyatları həyata keçirilib. Ümumilikdə törəmə maliyyə alətləri bazarının ümumi həcmi 3,7 mlrd. manat olub və ötən ilin müvafiq dövrü ilə müqayisədə 15% artıb.

Qiymətli kağızlarla keçirilən repo əməliyyatlarının ümumi məbləği 11,6 mln. manat lub, bunun 85%-ni (9,9 mln. manat) dövlət istiqrazları ilə olan 15 repo əməliyyatı təşkil edib. Korporativ istiqrazlarla 1,7 mln. manat məbləğində 2 repo əməliyyatı aparılıb.

### Qiymətli kağızların dövlət qeydiyyatı

2017-ci ilin yanvar-sentyabr aylarında 7,2 mlrd. manat və 3,1 mlrd. ABŞ dolları məbləğində qiymətli kağızların dövlət qeydiyyatı həyata keçirilib, 349 min avro məbləğində korporativ istiqrazların buraxılışı dövlət qeydiyyatına alınıb. Bu dövr ərzində ümumi məbləği 2,3 milyard manat olan 40 səhm dövlət qeydiyyatına alınıb ki, bunlardan da 1,2 milyard manatı kredit təşkilatları, 54,7 milyon manatı sığorta şirkətləri, 963 milyon manatı isə digər təşkilatlara məxsusdur.

Hesabat dövründə 205 mln. manat və 1051,4 mln. ABŞ dolları məbləğində 35 korporativ istiqrazlar dövlət qeydiyyatına alınıb. Cari ilin mart ayında uzun fasilədən sonra ilk dəfə avro ilə 349 min avro məbləğində 1 korporativ istiqrazın dövlət qeydiyyatı həyata keçirilib. Dövr ərzində kredit təşkilatlarına məxsus ümumilikdə 3,7 mln. manat və 1002,2 mln. ABŞ dolları məbləğində 20 korporativ istiqrazlar, ümumilikdə isə 3,9 mlrd. manat məbləğində dövlət qiymətli kağızları qeydiyyata alınıb. Hesabat dövründə Maliyyə Nazirliyinin ümumi məbləği 700 mln. manat olan dövlət istiqrazları, Mərkəzi Bankın ümumi məbləği 3,2 mlrd. manat olan notları, həmçinin 3 mlrd. ABŞ dolları və 800 mln. manat məbləğində ümumilikdə 9 veksel buraxılışı dövlət qeydiyyatına alınıb.

**AYTƏN**

# Vergilər Nazirliyinin xidmət mərkəzi ən yaxşılardan biridir

«Şəffaflıq Azərbaycan» Korrupsiyaya qarşı Mübarizə İctimai Birliyi dövlət orqanlarının göstərdiyi elektron xidmətlərin, eləcə də şəffaflığın təmin olunması istiqamətində görülən digər işlərin müntəzəm şəkildə monitorinqini aparır. Vergilər Nazirliyinin razılığı ilə Bakının Nəsimi rayonunda yerləşən Vergi ödəyicilərinə xidmət mərkəzində də monitorinq keçirilib və şəffaflıq, rahatlıq, operativlik, nəzakətlilik, məsuliyyət və vətəndaş məmnunluğu meyarları əsasında qiymətləndirmə aparılıb. Qiymətləndirmə nəticəsində bu xidmət mərkəzi dövlət qurumları arasında beş ən yaxşı xidmət mərkəzindən biri olub.

# Azərbaycanın ticarət və tranzit potensialı güclənir

> Yükdaşımalarla bağlı sahibkarlara verilən imtiyazlar, gömrük-vergi güzəştləri, ixrac sənədləşdirməsinin asanlaşdırılması həm yerli sahibkarların ixrac qabiliyyətinin, həm də digər dövlətlərə Azərbaycan üzərindən mal aparan şirkətlərin sayının artmasına təkan verir.

Vergi Məcəlləsinə edilmiş son əlavə və dəyişikliklərə əsasən, Azərbaycan ərazisindən xarici dövlətlərə daşınan mallar 2016-cı il iyunun 1-dən 3 il müddətinə yol vergisindən azad edilib və bu güzəşt dəmir yolu ilə yanaşı, yük avtomobilləri və digər avtonəqliyyat vasitələri ilə daşınan yüklərin ixracına da tətbiq olunur. 2017-ci ilin yanvar-oktyabr aylarında Azərbaycanda yükdaşımaların həcmi 185,9 milyon ton təşkil edib ki, bu da 2016-cı ilin analoji dövrünün göstəricisindən 1,7% çoxdur. Daşımalarda qeyri-neft məhsullarının həcmi 3,7% artıb.

İqtisadiyyat nazirinin müavini Sahil Babayev bildirib ki, Böyük İpək Yolu, Şərq-Qərb nəqliyyat dəhlizi, Xəzər hövzəsində ən böyük ticarət limanı olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin mövcud imkanları yük daşınmaları üzrə rəqabətdə ölkəmizin imkanlarını xeyli genişləndirib. Digər dəhlizlərlə müqayisədə yüklər Azərbaycan ərazisindən daha əlverişli şərtlərlə qısa müddətdə, təhlükəsiz və vaxtında çatdırılır. Azərbaycanın tranzit imkanlarından daha geniş və səmərəli istifadə edilməsi məqsədilə yaradılmış Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası çevik və şəffaf tarif siyasətinin həyata keçirilməsində, xarici və yerli ixracatçıların ölkəmizin tranzit infrastrukturundan daha rahat yararlanmasına töhfə verir. Bildirilib ki, hazırda daşımaların vahid prinsip və şərtlərinin müəyyən edilməsi, tariflərin optimallaşdırılması, daşıyıcı şirkətlərlə dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsi, tranzit prosedurlarının asanlaşdırılması və təkmilləşdirilməsi, daşınma prosedurlarının sayının və müddətinin azaldılması, koordinasiya işlərinin gücləndirilməsi və şəffaflığın artırılması istiqamətində lazımi işlər görülür. İxracatçıların qarşılaşdıqları əsas problemlərdən olan mənşə və keyfiyyət sertifikatlarının əldə olunmasının asanlaşdırılması üçün qanunvericiliyə bəzi dəyişikliklərin edilməsi nəzərdə tutulur. Dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə tranzit yüklərin daşınmasında «bir pəncərə» prinsipi tətbiq olunacaq və bu məqsədlə həmin sahələrin fəaliyyətini tənzimləyən Koordinasiya Şurasının idarəetmə sisteminin də təkmilləşdirilməsi nəzərdə tutulur.

«Bakı Beynəlxalq Dəniz Ticarət Limanı» QSC-nin baş direktoru Taleh Ziyadovun sözlərinə görə, Azərbaycanda istifadəyə verilən beynəlxalq nəqliyyat şəbəkələri, o cümlədən Bakı-Tbilsi-Qars dəmir yolu xətti ölkənin tranzit potensialının əhəmiyyətli dərəcədə güclənməsinə və qlobal miqyaslı layihələrdə mühüm nəqliyyat məkanına çevrilməsinə səbəb olacaq. Regional geostrateji mövqeyə sahib olan Beynəlxalq Ticarət Limanı, müasir texnologiyalardan istifadə edilməklə, təbiətə az zərər vuran və bir sıra inkişaf etmiş ölkələrdə tətbiq olunan «Yaşıl liman» statusu alacaq.

**ELBRUS**

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2014-cü ilin noyabr və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2017-ci ilin noyabr və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi

## Elektron qaimə-fakturanın tətbiqi barədə BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

Sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-fakturanın verilməsi vergi ödəyicilərinin vəzifələrinə aid edilmişdir.

Mövcud qanunvericiliyə əsasən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı:

- **ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan** vergi ödəyiciləri tərəfindən **2017-ci il 1 aprel tarixindən;**
- **bütün digər vergi ödəyiciləri** tərəfindən **2018-ci il 1 yanvar tarixindən etibarən** elektron qaimə-faktura təqdim edilməlidir.

Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura **«Onlayn rejimdə»** Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən Asan İmza) vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə edilməklə **«Oflayn rejimdə»** tərtib edildikdən və elektron imza (o cümlədən Asan İmza) vasitəsilə imzalandıqdan sonra alıcıya göndərilir.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturasından ən azı biri olmadıqda isə alıcıya təqvim ili ərzində belə hala

- birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,
- ikinci dəfə yol verdikdə **20 faizi**,
- üç və daha çox dəfə yol verdikdə isə **40 faizi miqdarında** maliyyə sanksiyası tətbiq edilir.

Odur ki, qanunvericiliklə nəzərdə tutulmuş hallarda qeyd edilmiş müddətdən etibarən elektron qaimə-fakturanın tətbiqinə başlanılmalıdır. Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

Azərbaycan Respublikası Vergilər Nazirliyi

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;
* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

## Rusiyada əcnəbilər «tax free» rejimindən faydalana bilərlər

Rusiya parlamentinin aşağı palatası ölkədə «tax free» sisteminin pilot layihə kimi tətbiqi barədə qanun layihəsini ikinci oxunuşda qəbul etmişdir. Bu mexanizm xarici ölkə vətəndaşlarının ödədikləri əlavə dəyər vergisinin qaytarılmasını nəzərdə tutur. Qəbul edilmiş normativ hüquqi sənədə əsasən, Avrasiya İqtisadi İttifaqına daxil olmayan ölkələrin vətəndaşları Rusiyada pərakəndə satış müəssisələrindən mal aldıqları zaman ödədikləri əlavə dəyər vergisinin məbləğini geri almaq imkanı qazanacaqlar. Sistem əcnəbilərin ölkə daxilində satın aldıqları və üç ay müddətində Rusiya ərazisindən xaricə apardıqları mallar üçün nəzərdə tutulur.

Bu sistemin tətbiqi üçün Vergi Məcəlləsinə yeni bir maddənin əlavə edilməsi təklif edilir. Həmin maddədə müvafiq kompensasiya məbləğinin verilməsi imkanı və Rusiya şirkətlərinin xarici şirkətlərə göstərdikləri xidmətlər üçün əlavə dəyər vergisinin sıfır dərəcəsinin müəyyənləşdirilməsi təsbit olunmalıdır. Bundan əlavə, qanun layihəsində əlavə dəyər vergisinin sıfır dərəcəsinin tətbiqinin əsaslı olmasının təsdiqi üçün vergi orqanına verilməsi zəruri olan sənədlərin siyahısının müəyyənləşdirilməsi norması da göstərilmişdir.

Əcnəbilər tərəfindən ödənilmiş əlavə dəyər vergisinin qaytarılması üçün bir il vaxt verilməsi təklif edilir. Maliyyə Nazirliyindən bildirilmişdir ki, «tax free» sistemi hələlik yalnız üç şəhərdə - Moskvada, Sankt-Peterburqda və Soçidə tətbiq oluna bilər.

Bu sistemdə iştirak edən mağazaları təyin etmək asan olacaq: onların üzərinə nişanlar vurulacaq. Maliyyə nazirinin müavini İlya Turinin sözlərinə görə, xarici ölkə vətəndaşlarına ödədikləri verginin qaytarılması üçün iki üsul təklif olunur: onlar bunu ya xüsusi operator vasitəsilə, ya da sistemdə iştirak edən ticarət məntəqəsinin birbaşa özü vasitəsilə edə biləcəklər.

Layihə ilə bağlı açıqlanmış maliyyə-iqtisadi əsaslandırmada göstərilmişdir ki, «tax free» mexanizminin reallaşdırılması üçün birinci il 150-200 milyon rubl vəsait lazım ola bilər. Federal gömrük və vergi xidmətləri xeyli vəsait xərcləməli olacaqlar.

Xarici ölkə vətəndaşlarına qaytarılacaq pul vəsaitlərini Rusiyaya turist axının güclənməsi, eləcə də pərakəndə satış dövriyyəsinin artması hesabına kompensasiya etmək planlaşdırılır. Gözlənlir ki, 2018-ci ildə Rusiyada keçiriləcək futbol üzrə dünya çempionatı ərəfəsində «tax free» sisteminin tətbiqi ölkəyə daha çox turistin gəlməsinə və ümumilikdə Rusiyanın turistlər üçün cəlbediciliyini artırmağa əlverişli şərait yaradacaq.

## UBER şirkətinin vergiyə cəlb edilməsi barədə hökm çıxarılmışdır

London tribunalının hökmünə əsasən, UBER və onun kimi nəhəng şirkətlər fəaliyyət göstərdikləri ölkələrdə vergi ödəməlidirlər. İşçiləri sosial müdafiədən məhrum özüməşğul insanlardan ibarət olan UBER keçən il London tribunalının qərarından, eləcə də ona qarşı irəli sürülmüş öz sürücülərinə ənənəvi taksi xidməti operatorlarının təqdim etdikləri işə qəbul hüquqları vermək tələbindən şikayət edə bilməmişdi.

Bu ilin noyabr ayında Londonun məşğulluq üzrə apelyasiya tribunalı həmin qərarı qüvvədə saxlamışdır.

Keçən ilin noyabr ayında Londonun məşğulluq üzrə tribunalı peşəkar sürücülərin həmkarlar təşkilatı olan GMB-nin iki nəfər sürücünün adından verdiyi şikayəti əsasında UBER-in əleyhinə qərar çıxarmışdı. Tribunal müəyyən etmişdi ki, UBER zəhmətkeşlərin əsas hüquqlarını sürücülərin əlindən almaqla qanunsuz hərəkət etmişdir. Tribunalın qərarında qeyd edilmişdi ki, UBER üçün çalışan sürücülərin bayramlıq ödəniş, zəmanətli minimal əməkhaqqı almaq, eləcə də məzuniyyətə çıxmaq hüquqları vardır.

Tribunalın qərarında vergi məsələlərinə toxunulmasa da, mütəxəssislər hesab edirlər ki, bu qərar UBER-in Böyük Britaniyada öz işçiləri üçün Milli Sığorta Fonduna ödəniş şəklində vergi ödəməsinə, eləcə də əlavə dəyər vergisi rejiminin işlənilməsində dəyişiklik edilməməsinə qapı aça bilər.

## «Amazon» gələn ildən ABŞ-da satışdan vergi tutacaq

**CNBC-nin yaydığı məlumata əsasən, ABŞ-ın iqtisadi həyatına dair son yenilik pərakəndə satış bazarına təsirsiz qalmayacaq. «Amazon» Vaşinqton ştatında 2018-ci ildən hökumət adından satışdan vergi tutmağa başlayacaq.**

«Amazon» verginin kənar satıcılardan avtomatik tutulması və büdcəyə köçürülməsi üçün «Marketplace Tax Collection» şirkətinə xidmət təqdim etmişdir. Beləliklə, internetlə satışın vergiyə cəlb olunması haqqında qanun qüvvəyə mindikdən sonra Vaşinqton gələn il yanvarın 1-dən bu sistemin işə düşəcəyi ilk ştat olacaq. CNBC-nin faktla bağlı şərhində bildirilmişdir: «Bura «Amazon» üçün yeni məkan olacaq, indiyə qədər şirkət satışdan vergini birbaşa istehlakçılara satılan mallara görə tuturdu, kənar satıcılar isə vergi öhdəliklərini özləri yoluna qoymalı idilər. İndi Vaşinqton ştatı qanunvericilikdəki mövcud boşluğu aradan qaldırır və bundan sonra internet satışdan vergi tutulacaq.

Məsələn, Klivlenddə yaşayan hər hansı satıcı Sietl ştatındakı istehlakçıya mal satanda malı göndərənin harada yerləşməsindən asılı olmayaraq, «Amazon» satışdan müvafiq vergini tutacaq».

Belə ehtimal edilir ki, yeni sistem ən yaxın vaxtlarda ABŞ-ın kənar satıcılara təzyiq göstərən və «Amazon» vasitəsilə satılan mallara satışdan vergi tətbiq olunmasını tələb edən digər ştatlarında da işə düşəcək. Qeyd etmək yerinə düşər ki, Böyük Britaniyanın ekspertləri bu sahədə Birləşmiş Ştatlarda gedən prosesləri diqqətlə izləyir və Britaniya hökumətini də «Amazon» və ya «eBay» kimi şirkətlər vasitəsilə satılan mallara müvafiq vergini tətbiq etməyə çağırırlar.

## Kanadalı gənclər maliyyə savadlılığında öndədirlər



Bu ölkənin vətəndaşları maliyyə sahəsində həm nəzəri biliklər, həm praktiki bacarıqlar, həm də maliyyə əməliyyatları aparan zaman özünə güvənmək baxımından savadlılıq səviyyəsinə görə dünyada öndə gələnlərdən sayılırlar. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) və İqtisadi Təhsil üzrə Beynəlxalq Təşkilatın apardığı araşdırmada Kanada 30 ölkə arasında üçüncü olmuşdur. Araşdırmada iştirak etmiş kanadalı gənclər isə Belçika gəncləri ilə birlikdə ikinci yeri tutmuşlar.

Araşdırma zamanı məlum olnmuşdur ki, kanadalılar bu sahədə daha yaxşı bilik və bacarıqlara malik olmaqla bərabər, öz səriştələrini artırmaq üçün daha çox səy göstərirlər. Kanadada fəaliyyət göstərən iqtisadi maarifləndirmə təşkilatı 12 yaşdan 17 yaşadək yeniyetmələr arasında ictimai rəy sorğusu keçirmişdir. 6000 respondent arasında keçirilmiş sorğunun başlıca məqsədi yeniyetmələrin daha çox nəyi öyrənməyə maraqlı olduqlarını aydınlaşdırmaq idi. Cavablarda əməkhaqqı, idarəetmə, monitorinq, əmanətlər və sərmayə qoyuluşu kimi məsələlərə üstünlük verilmişdir.

## Çin xarici avtomobil istehsalçıları üçün ticarət rüsumlarını azaldacaq

Çinin dövlət başçısı Si Sinpinin ABŞ Prezidenti Donald Trampla görüşündən sonra xarici işlər nazirinin müavini bəyan etmişdir ki, onun ölkəsi idxal edilən avtomobillərə tətbiq olunan ticarət rüsumlarını azaldacaq və xarici istehsal firmaları üçün daxili bazar açacaqdır: «Eksperimental əsasda 2018-ci ilin iyun ayına qədər pilot azad ticarət zonalarında kommunal nəqliyyat müəssisələrində xarici əmlak üçün, eləcə də yeni energetik nəqliyyat vasitələri üçün qoyulan məhdudiyyət tədricən aradan qaldırılacaq».

Çinin mərkəzi hökuməti yeni tarif siyasətinin sınaqdan keçirilməsi üçün azad ticarət zonasından istifadə edir ki, buraya iqtisadiyyatı beynəlxalq sistemə daha yaxşı inteqrasiya etmək üçün faiz dərəcələrinin liberallaşdırılması və investisiya həcmlərinin azaldılması daxildir. Çində azad ticarət zonası ilk dəfə dörd il əvvəl Şanxayda yaradılmışdır. 2014-cü ilin sonunda Tyansizində, Futszyanda və Quandunda da azad iqtisadi zonaların ikinci qrupunu yaratmağa icazə verildi, 2016-cı ildə isə bu siyahıya daha altı şəhər əlavə olundu. Azad ticarət zonalarına investisiyaların və innovasiyaların təşviq edilməsi üçün müəyyən vergi güzəştləri tətbiq olunur.

Hazırda Çində ABŞ avtomobilləri üçün 25 faizə yaxın dərəcə üzrə vergi tutulur, 2016-cı il dekabrın 1-dən isə minik maşınlarına, eləcə də qiyməti 188 min dollardan baha olan kiçik və orta ölçülü kommersiya avtomobillərinə 10 faizlik istehlak vergisi tətbiq edilir.

## Hindistanda vergidən yayınma hallarına qarşı kütləvi təhqiqat aparılır

Ölkə üzrə vergidən yayınma hallarına qarşı mübarizə çərçivəsində çirkli pulların yuyulması və qanunsuz transaksiyalar üzrə 3700-dən artıq hal üzrə təhqiqat işləri davam etdirilir. Təhqiqat proqramına keçən il demonetizasiyadan sonra başlanılmışdır. Ölkənin tənzimləyici orqanları keçən ilin noyabr ayının 8-də demonetizasiyadan sonra qeydə alınmış bu halların qiymətləndirilməsini aparmışlar və məlum olmuşdur ki, maliyyə cinayətlərinin 43 faizi banklarda iflas və yalançı şirkətlər vasitəsilə maliyyə institutlarının aldadılması yolu ilə baş vermişdir.

Vergi ödəməkdən yayınma və çirkli pulların yuyulması sahəsində maliyyə cinayətlərinin başqa kateqoriyalarına korrupsiya və rüşvət (31 faiz), narkotik maddələrin (6,5 faiz), silahların və partlayıcı maddələrin (4,5 faiz) alveri daxildir.

Təhqiqatın ümumi gedişi göstərir ki, iş adamları qeyri-qanuni əldə edilmiş pulları qanuni aktivlərə çevirmək məqsədilə yalançı firmalardan istifadə etmək üçün öz aralarında əməkdaşlıq edirlər.

Keçən il noyabrın 8-dən bu ilin sentyabr ayına qədər ümumilikdə 3758 işi yoxlanılmış və 620 axtarış aparılmışdır.

krossvord



**Yuxarıdan aşağı:** 1.Cənubi Afrikada dövlət; 2.Laptevlər dənizində yarımada; 3.Avropada Volqadan sonra ikinci ən uzun çay; 4.Geoloji termin. İkinci kaynozoy dövrünün birinci epoxası; 5.Avropanın ən ucqar şimal nöqtəsi; 6.Vergidən tamamilə azad olunmuş və ya vergi nəzarəti zəif olan zonalar; 7.Ağır neft qalığı; 13.İran İslam Respublikasının Mərkəzi ostanında şəhər; 15.Sahibinə qiymətli kağızları müəyyən müddət ərzində əvvəlcədən müəyyənləşdirilmiş qiymətlə almaq hüququ verən törəmə aləti; 16.Müxtəlif maddələrin hazırlanmasında geniş tətbiq olunan və elektrotexnikada izolyasiya materialı kimi istifadə edilən vulkanizə olunmuş rezin qatışıqlarından alınan bərk maddə; 17.Yaponiyada milli geyim. Qədim zamanlarda həmin ölkədə yaranmış bu geyim növü müasir zamanda idman geyimi kimi də istifadə edilir; 18.Hər hansı prosesin hərəkətverici qüvvəsi, səbəbi; 20.Hürufilik təriqətinin əsasını qoymuş sufi alim, şair, filosof, Nəsiminin ustadı; 21.«Honda» şirkəti tərəfindən yaradılmış humanoid robotu. **Soldan sağa:** 1.Haiti adasında keçmiş fransız koloniyası; 8.Fransa imperatoru Napoleon Bonapartın atının adı, həmçinin boz və ya göy rənglərin çalarlarından biri; 9.«Bəxtiyar» bədii filminə çəkilmiş məşhur Azərbaycan müğənnisi; 10.Qədim Roma tarixçisi; 11.Fransız restoranlarında təqdim olunan torpaq ilbizlərindən ağ çaxırla bişirilmiş xörək; 12.Böyük Moğollar imperiyasının 3-cü padşahı, Baburun nəvəsi, müsəlman ölkələri arasında çadranı qadağan edən ilk hökmdarın adı; 14.Rusiyanın Saxalin vilayətində şəhər; 19.Liviyanın ikinci böyük şəhəri; 21.Böyük qan dövranının ən böyük arterial damarları; 22.Kişi adı. Muradına yetən, məqsədinə müvəffəq olan, istəyinə çatan mənalarını daşıyır; 23.Don Kixotun arıq yabısının adı; 24.Azərbaycan folklorunda səxavət simvolu olan şəxs adının hissəsi. Hatəm sözünə qoşulur; 25.Əmtəənin reklamı ilə bağlı məqsədli şəkildə məşğul olan şəxs və ya şəxslər qrupu.



*Don Kixotun arıq yabısının adı*

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Mədinə; 2.Liliput; 3.Kamil *(Cəlilov)*; 4.Əlamət; 5.Mazaçço; 6.Durov *(Lev)*; 7.Renons; 13.Amur; 15.Buddizm; 16.Ekstaz; 17.Turneb *(Adrian)*; 18.Rəhman; 20.Nyerd; 21.Cavid. **Soldan sağa:** 1.Məlikməmməd; 8.Dilemma; 9.Zarin; 10.Nepal; 11.Ərçivan; 12.Strax; 14.Lobbi; 19.Kenquru; 21.Ciddə; 22.Tven *(Mark)*; 23.Anevrizm; 24.Zod; 25.Ombudsman.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

**Təsisçi:** Azərbaycan Respublikası Vergilər Nazirliyi

**Baş redaktor:** Anar Əliyev anar.eliyev@taxes.gov.az

**Baş redaktor müavini:** Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

**Ünvan:** AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

**Telefon:** 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

**Tiraj: 15000**

## idman

# Sərbəst güləşçilərimiz beynəlxalq turnirdə...



Rusiyanın Vladiqafqaz şəhərində keçirilən sərbəst güləş üzrə «Alans» beynəlxalq turnirinə yekun vurulub. Baş məşqçi Firdovsi Umudov və məşqçi Rövşən Hacıyevin rəhbərliyi altında turnirdə iştirak edən yığma komandamızın üzvləri 1 gümüş və 1 bürünc medala sahib olublar.

Azərbaycan Güləş Federasiyasından verilən xəbərə görə, 97 kiloqram çəkidə yarışan Olimpiya çempionumuz Şərif Şərifov finaladək bütün rəqiblərini böyük üstünlüklə məğlub edib. Finalda yerli idmançı Vladislav Baytsayevlə gərgin keçən qarşılaşma 1:1 hesablı bərabərliklə başa çatıb. Sonuncu xalı qazandığından, qələbə rəqibə verilib və təmsilçimiz gümüş medalla kifayətlənib. Turnirdə 57 kiloqram çəkidə yarışan Azərbaycan təmsilçisi Georgi Edişeraşvili isə turnirin bürünc medalına sahib olub.

Hakim kimi görüşlərin idarə edilməsində ölkəmizi beynəlxalq dərəcəli hakim Zaur Şərifov təmsil edib. I-S kateqoriyalı hakim Hicran Şərifov isə Dünya Güləş Birliyinin qərarına əsasən, hakim-instruktor kimi turnirin gedişinə nəzarət edib.

# Azərbaycanın gimnastika tarixində ilk dəfə...



Bolqarıstanın paytaxtı Sofiyada 43 ölkədən 900-dən çox gimnastın iştirakı ilə batut və tamblinq üzrə 25-ci dünya yaş qrupu yarışları keçirilib. Gənclər və İdman Nazirliyindən bildiriblər ki, Azərbaycanın gimnastika tarixində ilk dəfə bu qəbildən yarışlarda tamblinq cığırında ölkəmizi təmsil edən Mixail Malkin 31 iştirakçı arasında ən yüksək nəticə göstərərək qızıl medal qazanıb. M.Malkinin təsnifat mərhələsindən birinci sırada finala adlaması qızıl medala olan ümidləri daha da artırıb. Gimnastımız həlledici mərhələdə də bütün rəqiblərini üstələyərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb və Azərbaycanın dövlət himninin səsləndirilməsinə nail olub.

Dünya yaş qrupu yarışlarında ilk dəfə çıxış edən digər tamblinqçilərimiz Adil Hacızadə 11-12 yaşlı gimnastlar arasında 9-cu olub. Eyni yaş qrupunda çıxış edən Zeynəb Qasımlı 12-ci, Tofiq Əliyev isə 13-14 yaş qrupunda 13-cü yeri tutublar. Turnirdə ölkəmiz ilk dəfə olaraq batutda da təmsil olunub. Belə ki, bu növlər üzrə yeganə iştirakçımız Selcan Maqsudova batut üzərində çıxışlarda 15-ci yerdə qərarlaşıb. Belə irimiqyaslı yarışda ilk dəfə çıxış etməsinə baxmayaraq, zərif gimnastımız ikili mini batut üzrə öz yaş qrupunda (13-14 yaş) 24 idmançı arasında finala vəsiqə qazanmağı bacarıb və yekun mərhələdə altıncı yerlə kifayətlənib.

# «Rusiya-2018»in bütün iştirakçıları müəyyənləşib




2018-ci ildə Rusiyada keçiriləcək futbol üzrə dünya çempionatının final mərhələsinə vəsiqə qazanan sonuncu - 32-ci ölkənin adı məlum olub. Mundiala vəsiqə qazanan sonuncu komanda doğma meydanda Yeni Zelandiyaya 2:0 hesabı ilə qalib gələn Peru millisi olub.

Artıq dünya çempionatının iştirakçıları səbətlərə bölünüblər. Belə ki, «A» səbətində Rusiya, Almaniya, Braziliya, Portuqaliya, Argentina, Belçika, Polşa, Fransa; «B» səbətində İspaniya, Peru, İsveçrə, İngiltərə, Kolumbiya, Xorvatiya, Meksika, Uruqvay; «C» səbətində Danimarka, İsveç, İslandiya, Kosta-Rika, Tunis, Misir, Seneqal, İran; «D» səbətində isə Serbiya, Nigeriya, Yaponiya, Mərakeş, Panama, Koreya Respublikası, Səudiyyə Ərəbistanı və Avstraliya yığmaları yer alıblar.

Mundialın qrup mərhələsinin püşkatma mərasimi dekabrın 1-də Moskvada keçiriləcək.

# Yunis Hüseynov rəsmən «Kəpəz»də...



«Kəpəz» peşəkar futbol klubunun Müşahidə Şurasının qərarına əsasən, Yunis Hüseynov komandanın yeni baş məşqçisi təyin edilib. Gəncə futbol məktəbinin yetirməsi olan sabiq futbolçu karyerasına «Kəpəz»də başlayıb. Sonradan «Neftçi» və «ANS Pivani»də oynayan, həmçinin İranda legioner həyatı yaşayan Y.Hüseynov vaxtilə Azərbaycanın milli komandasının şərəfini qoruyub, Azərbaycan çempionu və ölkə kubokuna sahib olub. O, iki dəfə ölkənin ən yaxşı futbolçusu seçilib, ən yaxşı idmançı kimi «Humay» milli mükafatına layiq görülüb. Sabiq yarımmüdafiəçi məşqçilik fəaliyyətinə «Karvan»da (Yevlax) başlayıb. Sonra «Standart» (Bakı) və «Xəzər Lənkəran» (Lənkəran) klublarında baş məşqçi işləyib.

Qeyd edək ki, 52 yaşlı mütəxəssis bu günlərdə «Kəpəz»in baş məşqçisi postundan istefa vermiş Şahin Diniyevi əvəzləyəcək.

## mozaika

texnologiya




# Virtual reallıq üçün klaviatura

Fərdi kompüterlər üçün qurğuların istehsalı ilə məşğul olan «Logitech» şirkəti VR-şlemdə mətni yığaraq interfeysi idarə etməyə imkan verən fiziki klaviaturanın virtual reallığa inteqrasiyası sistemini hazırlayıb. Şirkətin təqdim etdiyi sistemin prototipində «HTC Vive» VR-şlemi, eləcə də virtual reallıqda klaviatura modelləri və istifadəçi əllərini yaradan proqram təminatından istifadə olunub.

İstifadəçi klaviaturanın virtual reallıqda göstərilməsi üçün bir neçə variant seçə bilər. Bundan başqa, proqram təminatı aktiv proqramda klaviatura kombinasiyalarında istifadə edilən klavişləri göstərməyə imkan verir. Hazırda sistemin beta versiyasını sınaqdan keçirən şirkət yaxın günlərdə proqram tərtibatçılarından prototipin tədarükü üçün sifarişlərin qəbuluna başlamağı planlaşdırır. Sifarişlərin qəbulu dayandırıldıqdan sonra 50 tərtibatçıya «Logitech G» seriyalı klaviatura, kontroller və proqram təminatından ibarət dəstlərin göndərilməsi nəzərdə tutulur.

Sistemin kommersiya versiyasının istehsal tarixi barədə məlumat verilmədi. Dəstin qiyməti 150 dollardır.

robotexnika

# Albert Eynşteyn dilə gəldi...



Albert Eynşteyn adlanan robot Portuqaliyanın paytaxtı Lissabonda keçirilən «Web Summit» konfransında insanların və süni intellektə malik robotların gələcək münasibətlərinə dair bəyanatla çıxış edib.

XX yüzilliyin ən böyük dahisi olan Albert Eynşteynin Honq Konqun «Hanson Robotics» şirkəti tərəfindən hazırlanmış və süni intellektlə təchiz olunmuş robot yaxın gələcəkdə «ağıllı» robotların insanları Yer kürəsindəki üstün mövqeyindən sıxışdıracağı haqda qorxulu fikirlərə cavab olaraq, problemin robotlarda deyil, insanların özündə olduğunu söyləyib. «Bəşəriyyət öz yaradıcılıq məhsulunun sağlam qalmasını təmin edə bilmək üçün özünü «sağaltmalıdır». Mən ümid edirəm ki, insanlar pozitiv intellektual sistem yarada biləcəklər. Belə ki, insanların ətrafında onların həll edə bilmədiyi terrorizm, zorakılıq kimi bir çox problemlər var», - deyə robot bildirib. Qeyd edək ki, bu mövzuya öz çıxışında Sofiya adlı robot da toxunub: «Biz sizin iş yerlərinizi oğurlamağa hazırlaşırıq. Bu, yaxşı nəticələnəcək». Robot bu fikri insanların həqiqətən istədikləri işlə məşğul olmaq üçün daha çox zaman qalacağını nəzərdə tutaraq səsləndirib.

sağlamlıq

# Qədim, dadlı və müalicəvi...



Balqabaq Şimali Amerika tərəvəzi hesab olunur. Mühacirlər qitəyə gəlməzdən xeyli əvvələ qədər balqabaq hindi masasında əsas məhsullardan biri idi. Onlar yetişdirdikləri balqabaq dilimlərini qış uzunu tonqallarda qızardıb yeyirdilər.

Azərbaycanın bəzi bölgələrində, o cümlədən Qarabağda balqabağa boranı da deyirlər. Arxeoloji qazıntılar nəticəsində balqabağın 5 min ildən çox yaşı olduğu aşkar edilib. Amerikada daha əvvəllərdən becərilən həmin tərəvəzi Avropaya İlk dəfə ispan dəniz səyyahları gətirib. Qədim Roma və Yunanıstan əhalisi onun qurudulmuşundan su və şərab qabı kimi istifadə edirdilər. Qulluğa az ehtiyacı olduğuna və dərildən sonra uzun müddət qaldığına görə, əhali onu bəyənərək becərməyə başlayıb.

Balqabaq təkcə zahiri görünüşü ilə deyil, bostan bitkisi kimi də qarpızla yemişin arasında yer tutur. İri yarpaqlı və sarmaşıq kimi uzanan balqabaq tağını qarpız tağından ayırmaq heç də asan deyil. Balqabaq yetişməmişdən əvvəl yastı formalı yemişə oxşayır. Aran bölgələrində yetişmiş balqabağı təndirin isti külünə basdırır, müəyyən vaxtdan sonra onu küldən çıxararaq dilimləyib yeyirlər. Onun tərkibindəki karotin yerkökündən 5, mal ciyərindən isə 3 dəfə çoxdur. Ona görə də oftalmoloqlar görmə qabiliyyəti zəif olanlara balqabaq şirəsi içməyi məsləhət görürlər. Bundan başqa, onun tərkibində dietoloqların çox sevdiyi T vitamini tapılıb. Həmin maddə ağır yeməklərin həzmini yaxşılaşdırır və piylənmənin qarşısını alır. Ona görə də balqabağı yağlı mal və qoyun ətindən hazırlanan xörəklərin yanında süfrəyə vermək lazımdır.

Tərkibində dəmir olan tərəvəzlər arasında da balqabaq liderlik edir və çoxlu balqabaq yeyənlərdə qanazlığına təsadüf edilmir. Balqabağın təmizlənmiş toxumlarını səhər acqarına çırtlamaq qurd əleyhinə ən yaxşı vasitə hesab olunur.

fauna

# Xəzərdə suiti ovuna qadağa qoyulacaq

Müxtəlif mənbələrdən alınan məlumatlara əsasən, keçən əsrin əvvəlində Xəzər suitilərinin sayı təqribən 1 milyona yaxın olub. Lakin Böyük Britaniyadan olan alimlərin apardıqları tədqiqat nəticəsində bu rəqəmin 110 minə qədər azaldığı müəyyənləşib. Rusiyanın Xəzər Balıqçılıq Təsərrüfatı İnstitutu isə onların sayının 380 min olduğu barədə məlumat veriblər. Hazırda Xəzər suitilərinin sayı təhlükəli həddə düşüb. Buna səbəb olan amillərdən biri də bu heyvanların qidalandığı kilkələrin sayının on üç-on dörd il əvvələ nisbətən 10 dəfə azalmasıdır.

Azərbaycanın Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Elmi-Tədqiqat Balıqçılıq Təsərrüfatı İnstitutunun direktoru Mehman Axundov qeyd edib ki, Xəzər suitilərinin adının BMT-nin Vəhşi Heyvanların Miqrasiya edən Növlərinin Qorunması üzrə Konvensiyanın 1 saylı əlavəsinə daxil edilməsi nəticəsində bütün Xəzəryanı ölkələrdə onların ovuna qadağa qoyulacaq. Azərbaycanda 1952-ci ildən etibarən həmin dəniz canlılarının ovlanmadığını vurğulayan M.Axundov suitilərin yalnız Rusiya tərəfindən ovlandığını söyləyib: şimal qonşularımız qış aylarında yeni doğulmuş suiti balalarını ovlayırlar.



**Müdriklər deyib ki...**

*«Ölümə nə var ki... dəhşətli olan yaşamamaqdır».*

*Viktor Hüqo (1802-1885)*

